**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SADIXOV ƏLİ ASLAN OĞLU**

# II DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ ABŞ-IN SİYASİ VƏ İQTİSADİ ÜSTÜNLÜKLƏR UĞRUNDA MÜBARİZƏSİ

**HSM-060211 Ölkəşünaslıq (ABŞ üzrə)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

**Elmi rəhbər: t.ü.f.d., dosent Bəhmən Əliyev**

**BAKI – 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ............................................................................................................... 3**

**I FƏSİL MÜHARİBƏ İLLƏRİNDƏ ABŞ-IN SİYASİ-HƏRBİ FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ.................................................................. 7**

1.1. II Dünya müharibəsi ərəfəsində Franklin Ruzveltin "Yeni Xətt" siyasəti və geosiyasi reallıqların formalaşmasında ABŞ-ın rolu................................................... 7

1.2. 1941-ci ildə ABŞ ordusunun hərbi əməliyyatlara qoşulması............................. 14

1.3. "Ox ölkələri" ilə hərbi-siyasi mübarizənin genişlənməsi, ABŞ və Böyük Britaniya danışıqları.......................................................................................... 24

**II FƏSİL ANTİ-HİTLER KOALİSİYASININ FORMALAŞMASINDA ABŞ-IN ROLU.......................................................................................................... 36**

2.1. ABŞ-Böyük Britaniya və SSRİ arasında danışıqlarda Vaşinqtonun mövqeyi: Tehran, Yalta, Potsdam konfransları................................................................... 36

2.2. Müharibə illərində ABŞ-ın hərbi-iqtisadi vəziyyəti........................................... 47

2.3. Müharibənin nəticələri və "Soyuq müharibə" dövrünün başlanmasında ABŞ-ın rolu...................................................................................................................... 57

**NƏTİCƏ............................................................................................................ 68**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI............................................ 72**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Müasir dövrdə baş verən hadisələr, xüsusi ilə beynəlxalq siyasi konyunkturanın sürətlə dəyişməsi təxminən 100 il əvvəlki dövrü xatırladır. Əgər Birinci Dünya müharibəsi XIX əsrin ikinci yarısında baş verən proseslərin nəticəsi idisə, İkinci Dünya müharibəsi məhz özündən əvvəlki müharibənin ortaya çıxardığı reallıqlarla bağlı idi.

Birləşmiş Ştatların imperialist siyasi təcəssümü panamerikanizm, habelə "dünya polisi" hakimiyyət doktrinaları onun fövqəldövlət statusunda mövqeyini müəyyən etmişdir. Bu determinantlar İkinci Dünya müharibəsindən sonra ABŞ-ın xarici siyasətini, geopolitik hədəflərini konkretləşdirmiş, sistemləşdirmişdir.

Qloballaşma zamanı ABŞ-ın hərbi, siyasi, iqtisadi gücünün tarixi-xronoloji müstəvidə, xüsusi ilə İkinci Dünya müharibəsi dövrü ilə müqayisədə tədqiqi maraq doğurur, aktuallıq kəsb edir. Birləşmiş Ştatların XX əsrin ikinci yarısındakı qlobal konyunkturada "hegemon güc" kimi ortaya çıxmasında mühüm rol oynayan dövrün öyrənilməsi və gələcək multipolyar sistemin proqnozlaşdırılması baxımdan mühüm əhəmiyyət daşıyır.

Birləşmiş Ştatların xarici siyasətinin tarixi həm də onu qidalandıran ideyaların tarixidir ki, onu yaradanların – bu siyasəti yönəldən, idarə edən dövlət xadimlərinin fəaliyyətinin tədqiqi vacibdir. İkinci Dünya müharibəsində ABŞ prezidentlərinin, dövlət katiblərinin, diplomat və yüksək rütbəli hərbçilərinin fəaliyyəti Birləşmiş Ştatların qlobal gücə çevrilməsində taleyüklü rol oynamışdır. F.Ruzvelt, H.Trumen, H.Uelles, H.Hopkins, A.Harriman, C.Hull, C.Marşal və başqalarının ABŞ-ın İkinci Dünya müharibəsi dövründə siyasi və iqtisadi üstünlüklər əldə etməsində mühüm rolunun tədqiqi aktual məsələdir.

**Mövzunun öyrənilmə dərəcəsi.** ABŞ-ın İkinci Dünya müharibəsi dövründə fəaliyyəti Birləşmiş Ştatlar, Avropa ölkələri, Rusiya, eləcə də digər ölkə müəlliflərin əsərlərində öz əksini tapmışdır.

İngilis müəlliflərindən Maykl C.C. Adams [70], Evan Maudsleyin [69] əsərlərində ABŞ-ın İkinci Dünya müharibəsində rolu geniş tədqiq edilmiş, Robert

Higgsin [59] tədqiqatında isə müharibə illəri ərzində iqtisadi elementlərə nəzər yetirmişdir. David R. Henderson [77] "Böyük Depressiya" illəri ərzində dünya və Amerikada yaranan böhranı analiz etmiş, Richard Haas [76] müharibədən sonra yaranmış yeni dünya düzənində ABŞ-ın rolunu və mövqeyini aydınlaşdırmışdır. Rus müəllifləri V.O. Peçatnov, A.S. Manıkin [29], M.V. Leonidoviç [26] xüsusilə müharibə dövrü geniş tədqiq etmiş və ABŞ-ın daxili və xarici siyasətini, üstünlük uğrunda mübarizəsini əks etmişlər. İbrahim Ulus [19], Oral Sander [16], Sabiha Sertel [17], Rıfat Uçarol [18] və s. türk müəllifləri də dövrü tədqiqatlarına cəlb etmişlər. Azərbaycan müəlliflərindən Məmmədağa Baxışov [2] ABŞ-ın dünya müharibəsindən milli maraqlarını müdafiə edərək hegemonluq statusuna yiyələnmək uğrunda mübarizəsi zamanı baş verən prosesləri – iqtisadiyyatın müharibə vəziyyətinə keçməsi sürətləndirilərək hərbi-iqtisadi potensialın artırılması, müttəfiq ölkələrə yardım proqramlarının qərara alınması, hərbi əməliyyatların trayektoriyasının müəyyən edilməsi və s. tarixi hadisələri öz əsərlərində göstərmiş, Qasımlı Musa [6] ABŞ-ın II Dünya müharibəsi dövründə siyasi, iqtisadi, hərbi, diplomatik fəaliyyətin xarici siyasət davranışında davamlılığı və ya dinamik dəyişiklik korrelyasiyası, onun müharibə dövrü təkamülünün uzunmüddətli meylləri və qanunauyğunluqlarına dair tədqiqatlar etmiş, Mustafayeva Səmayə [7] [8] Franklin Delano Ruzveltin müdrik siyasi xadimliyinin ABŞ-ı 12 ildə təlatümlü dünya divergensiyasında layiqli yeri tutumasında əlahiddə fəaliyyəti barəsində elmi-nəzəri araşdırmalar aparmışdır.

**Tədqiqat işinin məqsədi.** ABŞ-ın İkinci Dünya müharibəsində siyasi və iqtisadi üstünlüklər uğrunda mübarizəsinin tədqiqidir.

**Tədqiqat işinin vəzifələri.** Mövzunun aktuallığı, tədqiqatın obyekti və məqsədi tədqiqatın vəzifələrini müəyyənləşdirir. Tədqiqat zamanı aşağıdakı vəzifələr qarşıya qoymuşdur:

-Müharibə illərində ABŞ-ın siyasi-hərbi fəaliyyətinini xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

-İkinci Dünya müharibəsi ərəfəsində Franklin Ruzveltin "Yeni Xətt" siyasətinin formalaşmasının izlənməsi;

-ABŞ siyasi elitasının müharibə dövründə tutduğu mövqeni, "izolyasionist" və "internasionalist" aktorların qarşıdurmasının nəticələrini üzə çıxarmaq;

-ABŞ ordusunun hərbi əməliyyatlara qoşulmasını xronoloji baxımdan izləmək;

-"Ox ölkələri" ilə hərbi-siyasi mübarizənin genişlənməsi, ABŞ və Böyük Britaniya danışıqların gedişini aydınlaşdırmaq;

-Anti-hitler koalisiyasının formalaşmasında ABŞ-ın rolunu araşdırmaq;

-ABŞ-Böyük Britaniya və SSRİ arasında danışıqlarda Vaşinqtonun mövqeyini, Tehran, Yalta, Potsdam konfranslarının müharibədən sonrakı konyunkturanın formalaşmasında rolunu dəqiqləşdirmək;

-Müharibə illərində ABŞ-ın hərbi-iqtisadi vəziyyətini təhlil etmək;

-"Soyuq müharibə" dövrünün başlanmasında ABŞ-ın rolunu müəyyən etmək.

**Tədqiqat işinin metodoloji əsasları.** Birləşmiş Ştatların İkinci Dünya müharibəsi dövründə siyasi, iqtisadi üstünlüklər uğrunda mübarizəsinə, proses və faktlara tarixi-xronoloji müstəvidə, səbəb-nəticə və məntiqi ardıcıllıqla baxılmış, elmi müqayisəli təhlil metodundan istifadə edilmişdir. Təhlil zamanı struktur funksional analiz və sintez metodundan istifadə edilmiş, induktiv, deduktiv metodlara müraciət edilərək nəticələr sistemləşdirilmişdir.

**Dissertasiya işinin elmi yeniliyi.** İkinci Dünya müharibəsi dövründə ABŞ-ın siyasi-iqtisadi üstünlüklər uğrunda mübarizəsi tədqiq və təhlil edilərək onun superdövlət statusunun imperativ kökü ortaya çıxarılmışdır. Müharibə dövründə yeni geosiyasi reallıqların meydan gəlməsində ABŞ-ın rolu kompleks şəkildə tədqiq olunmuş, xarici siyasətinin səciyyəvi xüsusiyyətlərinə müasir dövrün siyasi konyukturasından baxılmışdır.

**Dissertasiyanın elmi və praktik əhəmiyyəti.** Tədqiqat zamanı ortaya çıxarılan faktlar, dəlillər, təhlillər referatların, məqalə və tezislərin, mühazirələrin, metodik vəsaitlərin, tədris materiallarının hazırlanmasında istifadə edilə bilər. Gəlinən nəticələr siyasi proqnozların verilməsi, müasir dövrün geosiyasi proseslərinin müqayisəli təhlilində, beynəlxalq gərginliyin köklərinin müəyyənləşdirilməsində praktik əhəmiyyətə malikdir.

**Tədqiqat işinin aprobasiyası.** Magistrlik dissertasiyasının əsas müddəaları müəllifin məqalə və tezislərində öz əksini tapmışdır.

1. Sadıxov Ə. A. Franklin Ruzveltin "Yeni xətt" siyasəti // Tələbə Elmi Cəmiyyəti, 2022;

2. Sadıxov Ə. A. İkinci Dünya müharibəsi ərəfəsində geosiyasi reallıqlar / "Heydər Əliyev və Şanlı Azərbaycan" adlı respublika tələbə-şagird elmi konfransı, Tələbə Elmi Cəmiyyəti, 2022, s.128-130.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, iki fəsil, altı paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. MÜHARİBƏ İLLƏRİNDƏ ABŞ-IN SİYASİ-HƏRBİ FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

## 1.1. II Dünya müharibəsi ərəfəsində Franklin Ruzveltin “Yeni Xətt” siyasəti və geosiyasi reallıqların formalaşmasında ABŞ-ın rolu

Birinci Dünya müharibəsindən sonra, xüsusilə 1920-ci illərdə ABŞ iqtisadiyyatı dinamik inkişaf edirdi və 1929-cu ilə qədər Amerikanın ümumi daxili məhsulu əvvəlki illərə nisbətən nəzərəçarpacaq səviyyədə yüksəlmişdi. Bununla belə, 1928-ci ildə prezident seçkilərində qalib gələn respublikaçı Herbert Huverin irəli sürdüyü “çiçəklənmə” və “ABŞ kapitalizminin müstəsnalığı” siyasəti ciddi nəticə vermədi. “Ciddi fərdiyyətçilik” və “şəxsi təşəbbüsə yol verilməsi” Huver administrasiyasının başlıca iqtisadi doktrinası idi. Huver administrasiyası yoxsulluğu aradan qaldırmaq üçün təkliflər planı işləyib hazırlasa da, həmin ərəfədə başlanan dünya iqtisadi böhranı bu planın həyata keçirilməsinə mane oldu. Böhrana baxmayaraq, Huverin dövründə ABŞ dollarının sabit valyuta kimi tanınması və onun beynəlxalq pul vahidinə çevrilməsi baş verdi [7, 33].

Nyu-Yorkdakı Uoll-Strit Fond Birjasında milyonçu maqnatlardan tutmuş sadə amerikalıların və digər ölkələrdən olan varlıların səhmləri yerləşirdi. Fond Bazarı 1929-cu il oktyabrın 24-də misli görünməmiş satış əməliyyatlarına şahid oldu, həmin gün 12.8 milyon səhm, 29 oktyabrda – “Qara Cümə Axşamı”nda isə 16 milyon səhm satıldı, satış pik həddinə çatdı. Qiymətli kağızlar dəyərini sürətlə itirməyə başladı. Birjada baş verənlər “Böyük Depressiya” adlanan dünya iqtisadi böhranına gətirib çıxardı. Böhran zamanı istehsal azalmış, işsizlik artmış, səhmlərin qiymətləri faktiki dəyərindən xeyli aşağıda düşmüşdü. Məvaciblərin azlığı istehlak borclarının çoxalmasına səbəb olmuş, aqrar sektorda tənəzzül baş vermiş, ərzaq qiymətlərinin deflyasiyası kəskinləşmiş, o cümlədən banklarda külli miqdarda problemli kreditlər ortaya çıxmışdı. ABŞ iqtisadiyyatı 1929-cu ilin oktyabrında tənəzzül dövrünə daxil oldu, istehlak xərcləri defisitləşməyə və satılmayan mallar artıqlığı yaranmağa başladı, bu da öz növbəsində fabrik istehsalına mənfi təsir etdi. Sonrakı bir neçə il ərzində istehlak xərcləri və investisiyalar azaldı, müflis şirkətlər işçilərini ixtisar

etdiyi üçün sənaye məhsulunun və məşğulluğun kəskin şəkildə enməsinə səbəb oldu. 1933-cü ilə qədər təxminən 15 milyon amerikalı işsiz qaldı və ölkə banklarının az qala yarısı iflasa uğradı. Ölkədə sənaye istehsalı yarıbayarı azalmışdı, şəhərlərdə evsiz insanların sayı durmadan artırdı. Fermerlər kənd təsərrüfatı texnikalarının çatışmamazlığı ucbatından məhsullarını yığa bilmir, onları tarlalarda çürüyərək tərk etməyə məcbur olurdular. Ənənəvi satış bazarlarından məhrum olunmuş, bank kreditləri dondurulmuş, bir çox təsərrüfat sahələri müflis olmuşdu. Corciya, Alabama, Oklahoma və Texasdakı fermerlər təsərrüfatlarını tərk edərək əkin ərazisi axtarışı üçün başqa ştatlara yollanır, habelə iş axtarışında kənd yerlərindən şəhərlərə kütləvi miqrasiyası edirdilər [30].

Ağır iqtisadi böhran, sosial qarşıdurma və kəskin siyasi mübarizə şəraitində 1932-ci ildə prezident seçkiləri keçirildi. Respublikaçıların namizədi Herbert Huver, demokratların namizədi isə geniş iqtisadi və sosial islahatları əhatə edən çoxəhatəli proqramı ilə Nyu-York ştatının qubernatoru Franklin Delano Ruzvelt idi. Seçkidə Ruzvelt böyük qələbə qazandı, 23 milyon seçici onun lehinə, 16 milyon isə rəqibinə səs verdi. Demokratlar 12 ildən sonra qalib gələrək öz namizədini Ağ Evdə görə bildilər. F. Ruzvelt ABŞ-ın 32-ci prezidenti və Amerika tarixində dərin iz buraxan siyasətçi, dövlət xadimi olmuşdur. Konstitusiyaya görə, prezident yalnız iki dəfə seçilsə də, o, 1932-ci ildən 1945-ci ilə qədər dörd dəfə prezidentliyə seçilən yeganə şəxs olmuşdur [6, 155-156].

Franklin Delano Ruzvelt 1933-cü il martın 4-də prezident seçiləndə iqtisadi böhran ən pik həddə çatmışdı və ölkənin təsərrüfatı dağılmaq ərəfəsində idi. Ruzvelt böhranla mübarizə aparmaq məqsədilə çoxsaylı qərarlar qəbul etdi. Ruzvelt administrasiyasının irəli sürdüyü "Yeni xətt" siyasəti həm inkişaf və yardım tədbirlərindən, həm də islahat tədbirlərindən ibarət idi. Huver administrasiyasından fərqli olaraq Ruzveltin "Yeni xətt" kursu dövlətin iqtisadiyyata müdaxiləsini dəstəkləyirdi və bunun iqtisadi böhranın qarşısını almaqda bilavasitə rolunun olacağını vurğulayırdı. İnvestisyanı dirçəltmək və işsizlərə iş tapmaq məqsədilə hökumət kapitalın rentabelli sahələrə sərf edilməsini, müvəqqəti olaraq işsizlərə mənzil, yol, körpü tikintisində və ayrı-ayrı sektorlarda iş tapmaq üçün əmək

strategiyasını nəzərə alan geniş proqramlar həyata keçirdi. İşsizlərə yardım üçün geniş iqtisadi proqramlar hazırlandı və 1940-cı ilə qədər birbaşa yardıma təxminən 16 milyard dollar xərcləndi. ABŞ Konqresi 1935-ci ildə işçilərə kollektiv tətil hüququ verən "Vaqner qanunu"nu qəbul etdi [77]. Bundan sonra işçi tətillərində iştiraka görə məsuliyyətə cəlb etmək qadağan olundu. Elə həmin il ABŞ tarixində ilk dəfə olaraq Sosial Təminat qanunu Konqresdən keçdi. Bu, işsizlik müavinətinin ödənilməsini, qüsurlu amerikan vətəndaşlarına, yəni korlara, şikəstlərə, ailə başçısını itirmiş analara və yetimlərə yardım etməyi nəzərdə tuturdu. Bu, ədalətli cəmiyyəti irəliyə doğru aparan böyük addım idi. Üç milyona yaxın gənci işlə təmin edən Sosial Mühafizə İdarəsinin əsası qoyuldu, uzun müddət yarımçıq qalan tikinti işlərinə vəsait tapıldı. Kənd təsərrüfatı və sənayedə bir çox uzunmüddətli islahatlar da yoxsulluq və işsizliyin aradan qaldırılmasına yönəldilmişdir. İslahatlara uyğun olaraq, bank, energetika, aqrar təsərrüfat, sosial təminatla bağlı çoxlu qanunlar qəbul olunmuşdur. "Yeni xətt" kursuna, əsasən, bankların bəzilərinə maliyyə yardımı edildi, daha sərt nəzarət altında, bank depozitlərinə hökumət zəmanəti ilə yenidən açıldı, digərlər isə ləğv olundu. ABŞ-da 1930-cu illərin ortalarınadək 25000 bankdan yalnız 15000-i fəaliyyətini dayandırmamışdı. Onlar dövlətdən kreditlər alır, əmanətçilərin depozitini ödəyirdilər [48, 120].

Yeni kurs çərçivəsində daha bir mühüm tədbir 1933-cü il iyunun 16-da qüvvəyə minmiş Sənayenin Bərpası qanunu idi. Onun dövlət tənzimlənməsi sistemi tətbiq edildi. Hər bir sənaye sahəsi üçün kodeksləşdirilmiş "ədalətli rəqabət məcəllələri" işlənib hazırlanmış və tətbiq edilmişdir [34, 300]. Qeyri-bərabər rəqabətə son qoyularaq iş həyatında ədalətli iqtisadi mühiti təmin edən qanunlar hazırlandı. Zəngin və böyük korporasiyalar üçün vergilər qaldırıldı, vergi qanunlarındakı boşluqlar federal və əyalət hökumətlərinin vergi siyasətlərində uzun müddət davam edən ziddiyyətlər böyük ölçüdə aradan qaldırdı. İslahatda hər bir müəssisəyə müəyyən istehsal həcmini, məhsulların qiymətlərini və satış bazarı təyin edilmiş, minimum əmək haqqı və maksimum iş həftəsi məcəllələrdə əksini tapmışdır. İşçilərin həmkarlar ittifaqı yaratmaq və kollektiv müqavilələr bağlamaq hüququ elan olunmuşdu. Sənayenin Bərpası haqqında qanuna, əsasən, işsizlərə sosial yardım

tədbirləri nəzərdə tutulmuşdu. İslahatlar çərçivəsində Xüsusi İctimai İşlər komitəsi yaradıldı, onun sərəncamında yolların tikintisi, məktəblərin təmiri, idman komplekslərinin yaradılması və s. üçün külli miqdarda pul ayrıldı. Bu tədbirlər 8 milyon amerikalını işlə təmin etdi.

"Yeni Xətt" siyasəti nə qədər uğurlu olsa da, bundan narazı olan müəyyən qruplar vardı, xüsusilə maliyyə və sənaye kapitalının nümayəndələri, eləcə də müxalif siyasi qüvvələr açıq şəkildə Ruzveltin islahatlarına qarşı çıxırdılar. Bunun nəticəsində 1934-cü ildə nəhəng ticarət korporasiyaların və inhisarçı qrupların birbaşa iştirakı ilə Amerika Azadlıq Liqası yaradıldı [23, 121-122]. Bu təşkilat iqtisadiyyatın dövlət tənzimlənməsinə son qoyulmasını, nəhəng korporasiya və şirkətlərdən alınan vergiləri azaltmağı, zəhmətkeş xalqa və demokratik hərəkatlara münasibətdə sərt mövqe tutmağı tələb edirdi. "Yeni xətt" əleyhdarlarının əsas hissəsini ABŞ Ali Məhkəməsi və onun arxasında duran maliyyə oliqarxiyası özünə rəhbər tuturdu [52, 272]. Ali Məhkəmə hakimləri dövlətin iqtisadiyyata hər hansı müdaxiləsinə yol verilməzliyilə bağlı qərar çıxardı. ABŞ Ali Məhkəməsi 1935-ci ilin mayında 12 qanunun, 1936-cı ilin yanvarında isə kənd təsərrüfatının tənzimlənməsi haqqında qanunun konstitusiyaya zidd olduğunu elan etdi. Belə təzyiq və qadağalar istənilən nəticəni vermədi, "Yeni xətt" kursu ətrafında liberal-demokratik qüvvələrin geniş koalisiyası yarandı, 1936-cı il seçkilərində Ruzveltin yenidən parlaq qələbə qazanmasına gətirib çıxartdı.

Ruzvelt administrasiyasının "Yeni xətt" kursu sırf daxili iqtisadi və ya sosial əhəmiyyət daşıyan islahatlarla məhdudlaşmırdı. Onun əhəmiyyətli hissəsini xarici siyasət təşkil edirdi [52, 275-276]. Həmin dövrdə ABŞ hökuməti beynəlxalq siyasət sahəsində də ciddi problemlərlə üzləşirdi.

1929-1933-cü illərin iqtisadi böhranı bütün kapitalist ölkələrinə bu və ya digər dərəcədə təsir etmişdi. Bu böhranın ən ciddi nəticəsi aparıcı imperialist dövlətlər arasında ticarət məhsulları bazarları, xammal mənbələri və gəlirli kapital qoyuluşu sahələri uğrunda mübarizənin kəskinləşməsi oldu.

İki böyük imperialist dövlət – Uzaq Şərqdə Yaponiya və Avropa qitəsində Almaniya – onların məqsədinin dünyanın öz siyasi, hərbi və iqtisadi maraqlarına

cavab verərək yenidən bölünməsi olduğunu gizlətmirdilər. Yaponiya artıq Çin ərazisinin bir hissəsini işğal etmişdi.

Qlobal beynəlxalq təhlükə kontekstində Ruzvelt administrasiyası belə nəticəyə gəldi ki, ABŞ-ın həmin regionda mövqeyini gücləndirmək lazımdır. Rəsmi neytrallığın saxlanması mövcud konyuktura üçün ən münasib sayılırdı. Mərmərə və Çanaqqala boğazlarında beynəlxalq vəziyyətin gərginləşməsindən və İtaliyanın Həbəşistana (Efiopiya) hücumundan sonra ABŞ Konqresi 1935-ci ildə "Bitərəflilik qanun"unu qəbul etdi. Qanun müharibə tərəfi olan ölkələrə silah tədarükünə qadağa qoyurdu və 1936-cı ildə qadağa onlara kreditlərin verilməməsinə qədər genişləndirildi. ABŞ-ın yeni hökumətinin xarici siyasət sahəsində ciddi təşəbbüsü, ilk növbədə, özünün hərbi-siyasi və iqtisadi maraqlarından çıxış edərək Sovet İttifaqı ilə diplomatik əlaqələr qurmaq qərarı idi. ABŞ-ın işgüzar dairələrinin SSRİ ilə ticarət-iqtisadi əlaqələrin inkişafında maraqlı olması üçün hər cür əsas var idi. Londonda 1933-cü ilin iyununda keçirilən beynəlxalq iqtisadi konfransda SSRİ nümayəndə heyətinin rəhbəri M.M.Litvinov bəyan etmişdir ki, onun hökuməti təxminən 1 milyard dollar məbləğində ticarət müqaviləsi imzalaya bilər. Bununla belə, ABŞ administrasiyasını Sovet İttifaqını beynəlxalq subyektin müstəqil üzvü kimi tanımağa sövq edən təkcə sovet bazarında iqtisadi maraq deyildi. SSRİ ilə diplomatik münasibətlər qurmaq perspektivi Yaponiya hökumətinin Uzaq Şərqdə artan fəallığını ABŞ maraqlarına təhlükə kimi görən və SSRİ ilə münasibətlərin normallaşdırılmasının Uzaq Şərqdəki potensial təhlükənin təcrid edilməsi vasitəsi ölkənin siyasi dairələrinin marağında idi. ABŞ dövlət katibi Cordell Hull 1933-cü ilin sentyabrında Yaponiya məsələsini Sovet İttifaqının tanınmasının lehinə amil kimi qeyd etmişdi. Ruzveltin yaxın köməkçilərindən biri olan Çarlz Bolen 1969-cu ildə yazılarında bildirmişdir ki, Sovet hökumətinin rəsmi tanınması ABŞ administrasiya tərəfindən heç bir zaman dəstəklənmədi, lakin Yaponiyanın Asiyada artan təcavüzü və nasist Hitlerin Almaniyada hakimiyyətə gəlməsi SSRİ-ni məcburi tanımağa səbəb yaratdı. 1933-cü il noyabrın 17-də Sovet İttifaqının ABŞ tərəfindən rəsmi tanınması elan edildi [2, 91-93].

Bu dövrdə ABŞ-da əsas xarici siyasi konsepsiyalar “izolyasionizm” və “internasionalizm” olaraq iki qrupa bölünürdü. “İnternasionalist” hakim siyasi elita tərəfdarları faşizm təhlükəsinə qarşı ABŞ-ın Böyük Britaniya ilə əməkdaşlıq etməsini, SSRİ ilə diplomatik münasibətlərini yaxşılaşdırılmasını dəstəkləyirdilər. Ruzvelt, hökumət üzvlərinin əsas hissəsi “beynəlmiləlçilik” konsepsiyasının tərəfdarı idi. “İzolyasionistlər”in mövqeləri ondan ibarət idi ki, ABŞ öz təsirini qorumaq məqsədilə Avropa və Uzaq Şərqdəki proseslərdən kənar qalmalı və müdaxilə etməməlidir. Avropa ölkələri ilə hərbi-siyasi ittifaq bağlanmamalı, öz bitərəfliyini qorumalıdır.

Franklin Ruzvelt administrasiyası xarici siyasətdə “mehriban qonşuluq” siyasətini qəbul edərək qərb yarımkürəsinə hərbi müdaxilədən rəsmən imtina etdi [8, 168]. Administrasiya qərb yarımkürəsindəki ölkələrlə əlaqələrin yaxşılaşdırılmasını ticarətin artırılması və ölkənin regionda strateji mövqeyinin möhkəmləndirilməsi üçün vacib sayırdı. Yeni siyasətin ilk konkret nəticələri 1933-cü ilin dekabrında Uruqvayın Montevideo şəhərində keçirilən VII Panamerika konfransında, dövlətlərin bir-birinin daxili işlərinə müdaxilə etməmək öhdəliyini qəbul etməklə aydınlaşdı. Kuba ilə 1934-cü il may ayında yeni müqavilə imzalayaraq Kubaya qarşı müstəmləkəçilik xarakterli, o cümlədən ABŞ-ın Kubaya hərbi müdaxiləsinə imkan verən “Plata düzəlişindən” imtina olundu [43, 240]. Həmin il Amerika qoşunları Haitidən çıxarıldı və 1936-cı ildə imzalanmış, 1939-cu ildə konqres tərəfindən ratifikasiya olunmuş müqavilə ilə Panama Kanal Zonasında əlavə kommersiya hüquqları əldə edildi. 1938-ci ildə Meksika Amerika neft sənayelərini milliləşdirəndə, dövlət katibi Cordell Hull Meksikaya güclü diplomatik təzyiq göstərdi və kompensasiya tələb edildi. Latın Amerikası ölkələri arasında “mehriban qonşuluq” siyasəti Amerikanın regiondakı xarici siyasətində sabitliyi saxlayan, onun iqtisadi maraqlarını qoruyan mühüm diplomatik alətlərdən biri idi.

F. Ruzveltin ikinci administrasiyası zamanı beynəlxalq hadisələr ABŞ-da siyasi qüvvələrin baxışlarının dinamizminə, xüsusilə Respublikaçılar Partiyasının planlarına əhəmiyyətli düzəlişlər gətirdi. Beynəlxalq proseslərin mürəkkəbləşməsi, “ox ölkələri”nin güclər blokunun genişlənən aqressivliyi ABŞ-ın dünya arenasında həm

siyasi, həm də iqtisadi dominant mövqeyinin təmin edilməsi zərurətini müdafiə edən konsepsiyasının güclənməsinə təsir edirdi.

ABŞ faşist blokuna müəyyən qədər güzəştlər həyata keçirmiş, xüsusən də 1936-1939-ci illər İspaniya vətəndaş müharibəsi zamanı ABŞ-ın atdığı siyasi addımlar dolayısı ilə "faşist oxu"-nun əlini gücləndirmişdi. Beləliklə, 1937-ci ilin yanvarında konqres tərəfindən qəbul edilmiş qətnamə İspaniyada hər iki münaqişə qrupuna silah ixracına embarqo qoyulmasını və may ayında demokratiya tərəfdarlarının general Franko ilə mübarizəsində kömək etmək əvəzinə neytrallıq haqqında yeni qanun qəbul edildi. Rəsmi olaraq Almaniya və İtaliya Frankonu dəstəkləyir, SSRİ isə respublikaçılara "üstüörtülü" yardım edirdi. SSRİ rəsmən münaqişə tərəfi olmadığından ABŞ hökumətindən embarqoya məruz qalmamışdı.

ABŞ hökumətinin İspaniyaya səyahət qadağasına baxmayaraq, əksəriyyəti könüllü adı altında kommunist amerikanlılardan ibarət olan sayı 3 minə yaxın 3 tabor ("Avraam Linkoln", "Corc Vaşinqton", "Con Braun" adlı taborlar) yaradılaraq İspaniyaya göndərildi. ABŞ 1938-ci ilin əvvəlində böyük itkilərə və onlardan hərbi əməliyyatlarda istifadənin açıq-aşkar səmərəsizliyi səbəbindən könüllüləri İspaniyadan çıxarmaq qərarına gəldi. Əksəriyyəti ABŞ Kommunist Partiyasının çağırışına cavab verən kommunistlərdən ibarət olan amerikalı könüllülər vətənlərinə qayıtdıqdan sonra "Avraam Linkoln Taborunun Veteranları" və "Avraam Linkoln Taborunun Dostları" təşkilatlarını yaratdılar [62, 520-523]. Onların arasında jurnalist və yazıçılar Ernest Heminquey, Alva Bessi və başqaları var idi. İspaniyada faşizmə qarşı mübarizəyə dəstək vermək üçün ABŞ-da bir çox ictimai təşkilatlar fəaliyyət göstərirdi, onların üzvləri fizik Albert Eynşteyn, müğənni kimi məşhur Paul Robson, o cümlədən yazıçı, şair və rəssam olan üzvlərdən ibarət idi. İspaniya vətəndaş müharibəsinin keçmiş veteranlarının çoxu Avropa antifaşistləri ilə əvvəllər qurulmuş əlaqələrindən yararlanaraq İkinci Dünya müharibəsində dolayısı yolla iştirak etmiş və ya ABŞ kəşfiyyatında xidmət göstərmişlər.

Avropada hadisələrin təhlükəli inkişafı ABŞ-ın Amerika qitəsində ekspansionist siyasətinin yayılmasına şərait yaratdı. ABŞ Kanada ilə diplomatik münasibətlərini yaxınlaşdırdı və Ruzvelt administrasiyası 1938-ci ildə "Monro

doktrinası"nı rəsmi olaraq genişləndirdi. Həmin ildə Limada (Peru) keçirilən VIII Panamerika konfransında Avropa diktatura rejimləri tərəfindən təcavüz halında birgə fəaliyyət proqramı hazırlandı [36, 189].

Franklin Ruzveltin daxili və xarici siyasətdə həyata keçirdiyi tədbirlər, yəni "Yeni xətt" siyasəti uğurlu oldu, qısa müddətdə "Böyük Depressiya"nın təsirləri minimuma endirildi, qlobal geosiyasətdə Birləşmiş Ştatlar dominant gücə çevrildi.

## 1.2. 1941-ci ildə ABŞ ordusunun hərbi əməliyyatlara qoşulması

İkinci Dünya müharibəsinin başlaması ilə ABŞ-da siyasi partiyalar arasında daxili məsələlərdə fikir ayrılıqları öz yerini dövlətin xarici siyasətində daha ciddi fikir ayrılıqlarına verdi. Siyasi və iqtisadi üstünlük uğrunda mübarizədə Avropada və Uzaq Şərqdə əsas imperialist rəqiblərin zəifləməsi fonunda Birləşmiş Ştatların "yumşaq güc" diplomatiyasına üstünlük verməsi vacib sayılırdı.

"İzolyasionistlər" İkinci Dünya müharibəsindən sonra Birləşmiş Ştatların müharibəyə daxil olmadan neytrallığını saxlamaqla, müharibədən əziyyət çəkən dünyaya öz şərtlərini diktə etməkdə çətinlik çəkməyəcəyini bildirirdilər. Alman və italyan köklü amerikalıları təmsil edən siyasi və işgüzar dairələr ABŞ-ı Avropadakı müharibəyə müdaxilə etməməyə səsləyirdilər. Prezident Franklin Delano Ruzvelt və onun yaxın ətrafını təşkil edən siyasi elitanın "internasionalist" liberal hissəsi Birləşmiş Ştatlarının hegemon güc kimi ortaya çıxması üçün qlobal arenada əlverişli şəraitin yaranması zərurətindən çıxış edirdi. Liberallara görə, bu məqsədə çatmağın ən unikal yolu müttəfiqlər əldə etmək və dünya müharibəsinin nəticələrinə təsir edə biləcək strateji mövqelərin tutulmasına istiqamətlənən fəal xarici siyasətdir.

Etibarlı müttəfiqlər əldə etmək məqsədilə ABŞ prezidenti Avropada faşist işğalçılarına qarşı mübarizə aparan ölkələrə, ilk növbədə İngiltərə və Fransaya silah yardımı göstərmək təşəbbüsünü irəli sürdü. Lakin 1939-cu il iyunun 30-da "izolyasionistlər" konqresdə Ruzveltin tərəfdarlarını məğlub edə bildilər, burada kiçik səs çoxluğu ilə İngiltərə və Fransa da daxil olmaqla istənilən müharibə iştirakçısına silah ixracına embarqo tətbiqi haqqında qanunun qəbuluna nail oldular.

Bu ölkələrin real hərbi məğlubiyyət təhlükəsi ilə üzləşməsi və Avropada qüvvələr balansının pozulması ABŞ-ı Böyük Britaniya ilə yaxınlaşmağa, onunla iqtisadi və siyasi əməkdaşlıq, həm də hərbi qüvvələri gücləndirməyə məcbur etdi.

Almaniya və SSRİ arasında 23 avqust 1939-cu ildə bağlanmış Molotov-Ribbentrop paktı adını alan hücum etməmə müqaviləsi ABŞ-da beynəlxalq vəziyyətin daha da mürəkkəbləşməsinin sübutu kimi qəbul edildi. 21 sentyabr 1939-cu ildə Ruzvelt konqresin fövqəladə sessiyasında ABŞ-ın bitərəfliyini dəstəkləyən bəyanat verdi, eyni zamanda konqresdən müttəfiq dövlətlərə silah satışı və ixracına qoyulmuş qadağanın ləğvini xahiş etdi. Ruzvelt çıxışında vurğuladı ki, bütün silah alışlar nağd şəkildə ödənilməli və bütün yüklər alıcının gəmilərində daşınmalıdır. 4 noyabr 1939-cu ildə konqres prezidentin təklifini təsdiqlədi və prezidentin təkliflərini özündə birləşdirən 1794-cü ildən bəri sayca dördüncü olan "Bitərəflik" qanununu xarici siyasətin əsas oriyentiri olaraq qəbul etdi [3, 124].

Müharibənin ilk ilinin sonunda ölkənin xarici siyasətini formalaşdırmaq uğrunda "izolyasionistlər" və "internasionalistlər" arasında gedən mübarizənin axarı və xarakterinə bir sıra amillər təsir göstərirdi. Birincisi, Polşanın tez zamanda məğlubiyyətindən sonra Avropada müharibə "qəribə müharibə" adını aldı. "Majinot xətti"nin arxasında gizlənən ingilis-fransız qoşunları almanların hücum strategiyalarını sakitcə izləyir, almanlar isə düşmənə həlledici hücumun müxtəlif variantlarını hesablayırdılar. Vəziyyət o qədər qəribə görünürdü ki, Ruzvelt öz xüsusi nümayəndəsi, dövlət katibinin müavini Avropaya göndərmək qərarına gəldi. H.Uellesin Moskva istisna olmaqla, bütün aparıcı Avropa dövlətlərini ziyarət edib danışıqlar apardı [29, 198].

"Qəribə müharibə" zamanı "izolyasionistlər" Avropanın "Yeni Qitə" ilə heç bir əlaqəsi olmayan siyasi çəkişmələr içində boğulduğunu, müharibə məsələsində imperialist ölkələrin Amerikaya nüfuz edəcəyini düşünürdülər. İkincisi, Ruzvelt və ona yaxın "internasionalist" hakim elitanın mövqeyinə 1939-cu il noyabrın sonunda başlayan sovet-fin müharibəsi təsir göstərdi. Müharibə Sovet İttifaqının hərbi təşəbbüsü ilə başladığından dərhal təcavüzkar elan olundu və Millətlər Liqasından çıxarıldı. SSRİ-nin Qərbdəki imicinə, hətta Moskvaya Avropanın təhlükəsizliyinin

möhkəmləndirilməsində mümkün tərəfdaş kimi nəzərdən keçirənlərə də ciddi zərbə vurdu. Buna görə də 1941-ci ilin iyun ayına qədər Qərb demokratiyaları ilə SSRİ arasında əməkdaşlıqdan söhbət gedə bilməzdi, lakin SSRİ-nin iştirakı olmadan "ox ölkələri"nin hücumuna effektiv cavab tədbirləri təşkil etmək mümkün deyildi. Çıxılmaz hal Ruzvelti İngiltərə və Fransa ilə əməkdaşlıqda və ABŞ-ın bitərəfliyini qoruyub saxlamada çox ehtiyatlı davranmağa vadar edirdi və nəhayət, bəlkə də ən əsası, növbəti seçki kampaniyası yaxınlaşırdı. O, 1940-cı ildə Birləşmiş Ştatların tarixində iki dəfə prezident seçilən dövlət xadimi olaraq iz qoymuşdu, növbəti seçkilərdə qalib gəlmək istəyirdi. Əslində, ilin əvvəlində baş verən seçkiqabağı mübarizənin əsas intriqası da bu idi. Siyasi şərhçilər, sadə amerikalılar və partiya rəhbərləri qarşıdan gələn prezident seçkilərində hakim partiyaya kimin başçılıq edəcəyini proqnozlaşdırmağa çalışırdılar. Demokratların partiya siyahısına rəhbərlik etmək istəyənlər çox idi: Qarner, Farli, Hull və s. Halbuki, Ruzveltin aktiv siyasi fəaliyyətdən kənarda qalması daxili mübahisələrə gətirib çıxaracaqdı ki, bu da siyasi proseslərdə partiyanın mövqeyinə açıq şəkildə mənfi təsir göstərəcəkdi. Habelə aydın görünürdü ki, partiyada hazırkı prezidentlə eyni nüfuza malik heç bir şəxs yoxdur. Ona görə yenidən demokratlar Ruzveltin namizədliyini irəli sürdülər.

Avropada "qəribə müharibə" 1940-cı ilin yazında başa çatdı [53, 25]. Almanlar Qərbi Avropada işğalı genişləndirməyə başladılar. Almaniya əməliyyatları Danimarka, Norveç, Benilüks ölkələrinin süqutuna səbəb oldu. Amerika cəmiyyətində əsl sarsıntı Qərbi Avropanın ən güclü hərbi gücünə malik Fransanın bir neçə həftə ərzində tamamilə məğlubiyyətə uğraması səbəb oldu. ABŞ bürokratiyası və hakim elitanın siyasi reputasiyası ciddi dönüş nöqtəsinə qərq oldu. Əgər 1940-cı ilin fevral-mart aylarında rəsmi Vaşinqton H.Uellesin missiyasının Qərbi Avropanın aparıcı ölkələrinə göndərilməsini siyasi müdrikliyin zirvəsi sayılırdısa, indi diplomatik konyuktura dəyişməyə başladı. Nüfuzlu Vaşinqton Post qazeti bu dəyişiklikləri əks etdirərək yazırdı: "Əgər müttəfiqlər müharibədə məğlubiyyətə düçar olsalar, bütün tariximiz boyunca ABŞ üçün ən böyük faciə olacaq" [70, 122].

ABŞ Fransanın məğlubiyyətindən sonra Almaniya ilə müharibə cəbhəsində praktiki olaraq tək qalaraq gərgin duruma düşən Böyük Britaniya ilə müttəfiqliyini

genişləndirmək qərarına gəldi. Ruzvelt administrasiyasının analitikləri başa düşürdü ki, İngiltərənin süqutu ümumi geosiyasi səhnədə ABŞ-ın vəziyyətini kəskin şəkildə pisləşdirəcək. Təsadüfi deyil ki, nüfuzlu ictimai xadim və Ruzvelti dəstəkləyən V.Vayt deyirdi: "Bizimlə Hitler arasında sərhədi Britaniya hərbi qüvvələri ayırır". Buna görə də Ruzvelt daxili siyasi vəziyyətin ona imkan verdiyi hər vasitədən istifadə edərək, Amerikanın ən yaxın potensial müttəfiqinin süqutunun qarşısını almağa çalışdı. Buna görə də ABŞ Böyük Britaniya ilə müqavilə bağladı [31, 150-155].

Müqavilənin şərtlərində ABŞ tərəfindən 50 esmines – hərbi gəminin İngiltərəyə təmin edilməsi, bunun nəzdində Atlantik okeanda yerləşən Britaniya adalarını icarə götürməklə uzun müddətli Birləşmiş Ştatlara hərbi baza yaratmaq imkanı verilməsi öz təstiqini tapdı. Müqavilə Amerika cəmiyyətində və hökumət nümayəndələri arasında çoxlu mübahisələrə səbəb oldu. Təbii ki, "təcridçilər", xüsusən də Amerika Birinci Komitəsi üzvləri administrasiyanın qərarını kəskin tənqid edərək, hakimiyyətin bitərəflik haqqında qanunvericiliyin müddəalarını açıq şəkildə pozduğunu və ölkəni qəsdən müharibəyə sürüklədiyini vurğuladılar. Əksini ifadə edərək "beynəlmiləlçilər" qərarın ölkənin təhlükəsizliyini gücləndirməyə yönəldiyini, çünki çoxsaylı hərbi bazalara arxalanmadan özünümüdafiə missiyasını uğursuz olacağını bildirirdilər. Ədliyyə naziri R.Cekson hüquqi kazusdan yararlanaraq iddia etdi ki, müqavilə mövcud qanunvericiliyə zidd deyil, çünki onun mahiyyəti ölkənin müdafiə qabiliyyətini gücləndirməkdir.

Bu arada ABŞ dünya tarixinin bu son dərəcə həlledici dövründə ölkəyə kimin rəhbərlik edəcəyini, onun xarici siyasətinin mahiyyətini kimin müəyyənləşdirəcəyi maraq doğuran növbəti seçkilərə yaxınlaşırdı. Əgər 1936-cı ildə xarici siyasət konsepsiyaları seçki mübahisələrində və hər iki partiyanın seçki platformalarında öncül yer tutmurdusa, bu dəfə partiyalararası mübarizənin mərkəzində idi. Qarşılıqlı diskusiyalara və rəqibin müdafiə etdiyi xarici siyasət kursunun qeyri-obyektiv olması ilə bağlı sərt ittihamlara baxmayaraq, hər iki partiyanın seçki platformalarının müvafiq mövqeləri kifayət qədər oxşar görünürdü. Həm demokratlar, həm də respublikaçılar həmvətənlərini inandırırdılar ki, Amerikanın müharibəyə cəlb

olunmasının qarşısını almaq üçün əllərindən gələni edəcəklər. Eyni zamanda, onları öz azadlıqları uğrunda mübarizə aparan ölkələrə qanun çərçivəsində köməklik göstərəcəkləri vədini verdilər. Elektrotların çətin seçim qarşısında qaldıqları açıq-aydın görünürdü. Təbii ki, onların qərarına İkinci Dünya müharibəsi cəbhələrində vəziyyətin getdikcə pisləşməsi daha çox təsir göstərirdi. Belə bir ab-havada liberalların kumiri Uolles tərəfindən səsləndirilən və demokratlar arasında populyar ideya seçicilər arasında əks-səda doğurdu: "Hərbi vəziyyət tam aydın şəkildə göstərir ki, ölkəmizi uğurla idarə etmək üçün hazırkı prezidentin istedadı və təcrübəsi mütləq lazımdır" [5, 64]. Bənzər arqumentlər ictimaiyyətə olduqca təsirli oldu. Franklin Delano Ruzvelt üçüncü dəfə qələbə çalaraq prezidentliyini qoruyub saxlamağı bacardı.

Beynəlxalq münasibətlər getdikcə ümumbəşər təhlükəli bir şəkil alırdı. Yapon qoşunları Hind-Çin istiqamətində əraziləri işğal etdi, almanların hərbi gəmilərinin Atlantik okean fəaliyyəti durmadan güclənirdi, Şimali Afrika hərbi əməliyyatların arenasına çevrildi və İngiltərə nasist hücumunu qarşısını almaqda aciz halda idi. 1940-cı ilin sentyabrında Berlində Almaniya, İtaliya və Yaponiya arasında "Yeni dünya nizamı"nın bərqərar olması uğrunda həlledici mübarizə müstəvisinə başlamaq niyyətlərini göstərən Üçtərəfli Pakt imzalandı. ABŞ-ın beynəlxalq münasibətlərdəki bu təhlükəli tendensiyalara reaksiyasını 4 qrupda təsnif etmək olar:

1. Ruzvelt ABŞ-da ictimai rəyin formalaşmasına başladı və ictimaiyyəti Amerikanın dünyanı bürümüş bəşəri proseslər burulğanında yaxından iştirakının qaçılmazlığını qəbul etməyə fokuslandı. 1940-cı il dekabrın sonunda ölkəyə radio müraciətində Ruzvelt amerikalıları ABŞ-ı öz azadlığı və təhlükəsizliyi uğrunda mübarizə aparan hər kəs üçün "demokratiya beşiyi"nə çevirmək üçün çalışmağa səslədi. 1941-ci ilin əvvəlində "Dörd Azadlıq" adı ilə tarixə düşən konqresə bəyan açıqlandı [41, 100-107]. Prezident bəyan etdi ki, ABŞ hökumətinin qarşıdakı illərdə məqsədi dörd azadlıq naminə: söz azadlığı, din azadlığı, ehtiyac və qorxudan azad olmaq uğrunda mübarizə aparmaq olacaq. Çıxışdakı ifadələrin bütün mücərrədliyinə baxmayaraq, onların faşist ölkələrin müdafiə etdiyi dəyər paradiqmasına açıq şəkildə alternativ olduqları açıq-aydın görünürdü Ruzvelt hesab edirdi ki, tarixin kritik

məqamında ABŞ mənəvi liderlik yükünü öz üzərinə götürməli və dünyaya bir növ liberal dəyərlərin manifestini təqdim etməlidir.

2. Ruzvelt başa düşürdü ki, Milli Müdafiə proqramlarına qoyulan nəhəng investisiyalar effektiv idarəetmə tələb edir, əks halda ayrılan vəsaitlərin istifadəsi şəffaflığı kölgədə qoya bilər. İqtisadiyyatın müharibə vəziyyətinə keçirilməsi prosesini stimullaşdırmaq və keyfiyyətini artırmaq məqsədilə 1941-ci ildə vitse-prezident H.Uelles başçılıq etdiyi İqtisadi Müdafiə İdarəsi yaradıldı və "Qələbə Proqramı" hazırlanmağa başlandı. Beləliklə, hələ ABŞ-ın müharibəyə rəsmi daxil olmasından əvvəl, hökumət ordunun və korporasiyaların yuxarı təbəqələri ilə sıx təmasda olaraq, hərbi iqtisadiyyatın əsas aspektlərini tənzimləyən orqanların şaxələnmiş strukturunu formalaşdırmağa başladı, o cümlədən dəfələrlə təkmilləşdirildikdən sonra Amerikanın müharibədə qələbəsini təmin edən maddi-texniki baza yaradıldı.

3. Üçlü Paktın imzalanmasına cavab olaraq ABŞ müharibə vəziyyətində hərbi-strateji planların hazırlanmasını sürətləndirdi. Yüksək rütbəli hərbi komandanlar nəhayət, Avropa və Asiyada baş verən hadisələri bütövlükdə nəzərdən keçirməyə və Ruzveltin təkid etdiyi, Sakit okean regionuna deyil, Avropada əməliyyatlar üstünlük verməyə razılaşdılar. 1941-ci ilin əvvəlində Vaşinqtonda ABŞ və Böyük Britaniya silahlı qüvvələrinin baş qərargah rəisləri arasında gizli danışıqlar aparıldı, bu danışıqlar gələcək birgə hərəkatlara əsas olan planının təfərrüatları razılaşdırıldı.

4. ABŞ Nümayəndələr Palatası Demokratlar Partiyasının lideri C. Makkormik 1941-ci ilin yanvarında administrasiya ilə razılaşaraq, Amerikanın müdafiə və təhlükəsizliyində vacib olan strateji ölkələrə silah və hərbi materialların verilməsi haqqında qanun layihəsini konqresə təqdim etdi. Bu qanun layihəsinin müzakirəyə çıxarılması ilə "izolyasionistlər" və "internasionalistlər" arasında mübarizə kulminasiya nöqtəsinə çatdı. Lend-liz proqramının ABŞ üçün zəruri və faydalı olduğu doqmatik yanaşması olmayan hər bir siyasətçiyə tam aydın idi. Senator Aiken tamamilə haqlı olaraq ifadə edirdi: "Lend-liz proqramı bizi müharibəyə cəlb edə biləcəyi hər kəsə aydındır, lakin İngiltərəni və demokratiyanı xilas etmək istəyiriksə, zəruri olan yeganə şansdır" [37, 149-151]. Digər tərəfdən, qanun layihəsinin qəbulu

ABŞ-ın bitərəflik kursuna uyğun gəlmədiyi açıq-aydın görünürdü. Amerikalı tarixçi Çarlz Beard səbəbsiz olaraq bu qanun layihəsini “elan edilməmiş müharibənin aparılması haqqında qanun layihəsi” adlandırırdı [37, 152].

Qanun layihəsinin müzakirəsi ilə müşayiət olunan qızğın mübahisələr zamanı əksər konqresmenlərin praqmatizmi ənənəvi xarici siyasət imperativlərinə sadiqliklərini üstələdi və nəticədə qanun layihəsi 1941-ci il martın 11-də qəbul edildi. Onun həyata keçirilməsinə məsul olan şəxs isə prezidentin ən yaxın adamlarından H.Hopkins idi. Həmin an İngiltərə və Yunanıstan bu proqram çərçivəsində yardım alan ölkələr oldu. Elə həmin il bu ölkələrə 780 milyon dollar məbləğində hərbi yardım göstərilmişdir.

ABŞ-ın müharibəyə qoşulması prosesi getdikcə sürətlənirdi. 1941-ci ilin aprelində Danimarka müstəmləkəsi olan Qrenlandiyanın Almaniyanın işğalı təhlükəsi yarandıqda ABŞ rəhbərliyi adanın strateji əhəmiyyətini nəzərə alaraq, Amerika əsgərlərinin dislokasiyası qərarını aldı. Eyni zamanda Ruzvelt Amerika donanmasının patrul zonasını genişləndirdi və Keyptauna gedən ABŞ gəmisinə alman sualtı qayığının hücum etməsi fövqəladə vəziyyətin tətbiq edilməsini şərtləndirdi. Əlavə olaraq, iyul ayında nasist agentlərin İslandiyada artan fəaliyyəti Amerika qoşunlarının göndərilməsi qərarına səbəb oldu. Strateji nöqteyi-nəzərdən tamamilə düzgün qərar idi, çünki İslandiya tez bir zamanda Avropaya Lend-liz proqramı çərçivəsində Amerika hərbi tədarükləri yolunda əsas mənzərəyə çevrildi. Avropada isə müharibənin istiqamətini kökündən dəyişən hadisə baş verdi – 1941-ci il iyunun 22-də faşist Almaniyası müharibə elan etmədən Sovet İttifaqına müharibəyə başladı. Ertəsi gün ABŞ hökumətinin ümumi düşmənə qarşı mübarizədə əməkdaşlığa hazır olmasını ifadə edilən rəsmi bəyanat yayınlandı: “Hitler orduları bu gün Amerika üçün əsas təhlükədir” [5, 529].

Bununla belə, ABŞ-ın siyasi elitası arasında Vaşinqtonun indiki vəziyyətlə bağlı ortaq konsensusu yox idi. SSRİ-nin Vermaxt silahlı qüvvələrinin hücumuna tab gətirə biləcəyinə inanmayan, ya da müharibənin tərəfləri bir-birini, istər məhv etməsi, istərsə də zəiflətməsini gözləyərək izləmə mövqeyi tutması ABŞ üçün faydalı olduğuna düşünənlər çox idi. ABŞ-ın gələcək prezidenti, senator H. Trumen

o zaman unikal bəyanatla çıxış edərək: "Əgər görsək ki, Almaniya qalib gəlir, biz SSRİ-yə kömək etməliyik, əgər SSRİ qalib gəlirsə, Almaniyaya kömək etməliyik, hətta imkan daxilində bir-birini bu yolla məhv etməliyik, baxmayaraq ki, mən heç bir şəraitdə Hitleri qalib görmək istəmirəm" [57, 290].

Ruzvelt ehtiyatlı diplomatik yollardan yararlanaraq iyunun sonunda ən yaxın həmkarı Hopkinsi Moskvaya yolladı, orada Stalin və Molotovla birbaşa danışıqlar aparıldı. Görüşlərdə Hopkinsə rusların sona qədər mübarizə aparacağı bildirildi və buna görə də ABŞ-ın tezliklə Moskvaya effektiv dəstək verəcəyinə söz verdi. Nəticədə çətin durumda olan Sovet İttifaqına Qərb dövlətlərinin yardımı məsələsinə baxılması üçün üçtərəfli görüşün (SSRİ, ABŞ, Böyük Britaniya) keçirilməsi barədə razılıq əldə olundu. Amerika nümayəndə heyətinə tanınmış siyasətçi, diplomat və iş adamı A.Harriman, britaniyalılara lord Biverbruk başçılıq edirdi. Onların sovet rəhbərliyi ilə danışıqları zamanı SSRİ-yə yardım proqramı razılaşdırıldı [32, 51].

Moskva protokoluna görə, ABŞ SSRİ üçün zəruri olan malların tədarükünü təmin edəcəkdi və malların haqqı müharibədən sonra, yəni 10 il müddətinə ödənilməlidir. ABŞ 1941-ci ilin noyabrında SSRİ-yə Lend-liz proqramını tətbiq etdi.

Antifaşist koalisiyanın iqtisadi əsasının inteqrasiyası ilə paralel olaraq onun ideoloji-siyasi dizaynı da baş verirdi. Birləşmiş Ştatlar üçün İngiltərə ilə müttəfiqlik münasibətləri qurmaq daha asan idi. Təsadüfi deyil ki, gələcək koalisiyanın ideoloji-siyasi platformasının hazırlanması istiqamətində ilk addım ikitərəfli əsasda qurulmuşdu. Söhbət Ruzvelt və Çörçilin Nyufaundlenddə görüşü zamanı qərəra alınan Atlantik Xartiyasından gedirdi. 1941-ci il avqustun 14-də elan edilən xartiya hər hansı ölkəyə ərazi iddia etmənin rədd edilməsini, xalqların öz müqəddəratını təyinetmə hüquqlarına hörmət edilməsini və ticarətdə əməkdaşlığı nəzərdə tuturdu. İki ölkənin liderləri nasistlərin məğlubiyyətindən sonra xalqların sülh şəraitində yaşaya bildiyi, işğal və təcavüzdən azad olacağı dünya nizamını yaratmağa söz verdilər. Maraqlıdır ki, iki ilə yaxındır Reyxlə müharibədə olan İngiltərəyə bu cür fikirləri dəstəkləməyi məntiqli addım kimi görünürdüsə, formal olaraq bitərəf qalan Amerikaya bu sənədə qoşulmaq mahiyyətcə həmin qanuna görə zidd idi. Çörçill öz

xatirələrində yazdığı kimi, razılaşma “Normal şəraitdə müharibə aktına bərabər idi” [70, 144].

Xartiyanın təşəbbüskarları SSRİ-ni razılaşmaya qoşulmağa dəvət etmək qərarına gəldilər. Sovet hökuməti daxilində aparılan gərgin müzakirələrdən sonra 1941-ci il sentyabrın 24-də Atlantika Xartiyasının əsas müddəalarını dəstəklədiyi açıqlandı. İkinci Dünya müharibəsinin ümumi dinamikasında böyük əhəmiyyət daşıyan antihitler koalisiyasının ideoloji əsası belə formalaşmağa başladı. Hitlerin bütün hesablamaları ona əsaslanırdı ki, rəqibləri arasında elə ciddi fikir ayrılıqları var ki, həmin ziddiyətləri aradan qaldırmaq mümkün deyil və bu, onların ittifaq halında birləşməsinə mane olacaq, sonda isə rəqiblərini bir-bir məhv edə biləcək. Hitler açıq şəkildə koalisiya ilə müharibəni proqnozlaşdırmamışdı.

ABŞ və Yaponiya arasındakı münasibətlərdə müharibə potensialı sürətlə artırdı. Hələ 1941-ci ilin yazında Vaşinqtonla Tokio arasında gizli danışıqlar başladı və bu, ABŞ-ın “günəşin doğan ölkəsi” ilə başa-baş toqquşmamaq üçün son cəhdi oldu [1, 418]. Sonradan məlum oldu ki, Tokio danışıqlara tamam başqa cür yanaşır. Yaponlar öz həqiqi niyyətlərini ört-basdır etməkdə danışıqları bir vasitə kimi görürdülər. Amerikalıların səbri getdikcə tükənirdi. 1941-ci il iyunun 21-də dövlət katibi C.Hull Yaponiya səfirinə əsas mübahisəli məsələlərdə Amerikanın mövqeyini əks etdirən nota verdi [1, 420-425].

Amerika tərəfi danışıqlarda müvafiq suallara aydın cavab almaq istəyirdi. Tokionun növbəti addımı isə yenidən amerikalıları yubandırmağı seçmək idi. Amerika rəhbərliyində Yaponiya ilə bağlı hansı strategiyanın həyata keçiriləcəyi ilə bağlı konsensus yox idi. Ruzvelt məsələni birbaşa hərbi toqquşmaya gətirmədən və eyni zamanda Yaponiyanın hakim elitasının aqressiv istəklərini cilovlayacaq bütün təzyiq vasitələrindən yararlanaraq, “orta kurs” adlanan siyasəti davam etdirdi, o cümlədən Ruzvelt yaxşı bilirdi ki, Yaponiya ilə toqquşma qaçınılmazdır, lakin elə bir diplomatik oyun qurmaq lazımdır ki, ilk hücumu məhz yaponlar başlasın, çünki prezident hələ də “təcridçilər”in ciddi müqaviməti ilə qarşı-qarşıya idi. Bu prizmadan ABŞ-ın 1941-ci il iyulun sonunda qəbul etdiyi Yaponiyanın Amerikadakı aktivlərini dondurmaq qərarı başa düşüləndir. Bir neçə gündən sonra Yaponiyaya neft və neft

məhsullarının ixracına məhdudiyyətlər qüvvəyə mindi. Bununla belə, Yaponiya artıq ekspansiyanın inkişafında prioritetlər sistemini müəyyən etmiş və açıq şəkildə Amerika tərəfinə kompromisə getmək niyyətində deyildi. Üstəlik, ABŞ-ın notası Yaponiyanın hərbi-siyasi rəhbərliyinin ABŞ-ı tamamilə iflic vəziyyətə məhrum etmək məqsədilə Asiya-Sakit okeandakı hərbi bazalarına hücuma hazırlığı sürətləndirməyin zəruriliyinə inamını artırdı. Dövlətlərarası qarşılıqlı diplomatik manevrlər davam edərkən ABŞ-Almaniya münasibətləri daha da gərginləşdi. Sentyabrın əvvəlində Atlantik okeanın şimalında ABŞ döyüş esminesi ilə alman sualtı qayığı arasında baş verən hərbi insidenti Ruzvelt “terror hücumu” adlandırdı. Prezident “ox dövlətləri”nin məqsədli şəkildə Amerika qitəsini işğal etməyə hazırlaşdığını bildirdi [57, 300]. Buna əsaslanaraq, hərbi dəniz qüvvələrinə ABŞ-ın təhlükəsizliyini müdafiə etmək məqsədilə dəniz və okeanlarda alman hərbi gəmilərinə xəbərdarlıqsız atəş açmaq əmri verildi. Əslində ABŞ Hərbi Dəniz Qüvvələri Almaniyaya qarşı elan edilməmiş müharibəyə başladı. ABŞ-ın okeanda maraqlarını təmin edən hərbi dəniz qüvvələrinin səlahiyyətlərini əhəmiyyətli dərəcədə genişləndirən hökumət administrasiyanın təklifləri konqresdə təsdiqləndi.

1941-ci il dekabrın 7-də Yaponiya silahlı qüvvələri müharibə elan etmədən ABŞ-ın Sakit okeandakı ən böyük hərbi dəniz bazasına – Pearl-Harbora, eləcə də digərlərinə – Quam, Ueyk, Miduey, Filippin adalarına hücum etdi [75, 25].

Birləşmiş Ştatlar İkinci Dünya müharibəsinə digər böyük dövlətlərin əksinə ən gec qoşulan olmuşdur. Bu hadisə ABŞ-ın xarici siyasətinin növbəti təkamülünə çox böyük təsir göstərdi. “Pearl-Harbor” döyüşü ölkənin xarici siyasətinin tarixi dəyişikliyinə təkan verdi. “İzolyasionist” xarici siyasət əsr yarımlıq dövrü başa çatdı. Əslində Birləşmiş Ştatların siyasi dairələrində beynəlxalq əməkdaşlığın dəyəri və kollektiv təhlükəsizlik sistemi ilə bağlı mübahisələr yapon təyyarələrinin Pearl-Harbora hücum günü, 1941-ci il dekabr ayının 7-də bitdi, həmin gün hər bir realist siyasətçi üçün “təcridçilik xətti” tarixin bir küncünə atıldı.

## 1.3. “Ox ölkələri” ilə hərbi-siyasi mübarizənin genişlənməsi, ABŞ və Böyük Britaniya danışıqları

ABŞ-ın İkinci Dünya müharibəsinə qoşulması dərhal Vaşinqtona yeni xarici siyasət istiqamətlərini müəyyən etməsinə gətirib çıxartdı. İlk sırada müttəfiq axtarışları, “ox ölkələri”nə qarşı mübarizənin genişləndirilməsi və Qərb yarımkürəsində Amerika nüfuzunun gücləndirilməsi idi. Bütün hərbi və xarici siyasət strategiyası bir məqsədə – müharibədə ABŞ-ın özü üçün minimal insan itkiləri və az xərclərlə qalib gəlməyə köklənmişdi. Düşmən işğalı təhlükəsinə məruz qalmadan, intensiv istehsal gücü ilə nəhəng iqtisadi bazaya və onu hərbi qüvvə arsenalının artırılmasına inteqrasiya edərək və buna qısa vaxtda nail olaraq səfərbərliyin unikal modelin həyata keçirilə bilərdi.

Əsasları hələ Pearl-Harbor döyüşündən əvvəl formalaşmış administrasiyanın planlarında əsas niyyət müttəfiqlərə yardım göstərmək və “ox ölkələri”nin istehsal imkanlarını üstələyən hərbi-iqtisadi potensialın yaradılmasından ibarət idi. 1942-ci ilin yanvarında “Qələbə Proqramı”nın göstəriciləri qarşıya qoyulmuş plana əsasən artırıldı: artıq həmin il Amerika 45 min təyyarə, 45 min tank və 20 min zenit-raket kompleks silahları istehsal etməli idi. Daha sonra Avropada ABŞ-ın genişmiqyaslı döyüş əməliyyatları planlaşdırıldı. Belə olan halda, ordu qurucularının “Ümumi Strateji Konsepsiyası” istinadən, sənaye, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdən işçi qüvvəsini birdən-birə hərbiyə səfərbər edərkən ölkənin iqtisadi sütunlarını sarsıtmağa ehtiyac qalmayacaqdı. Bunun əvəzinə, əsas səylər çox sayda amerikalının dərhal səfərbər edilməsini tələb etməyən Hərbi Hava Qüvvələri, Dəniz və Quru Qoşunları yaratmağa yönəldiləcəkdi. Xarici siyasət belə bir strategiyanın həyata keçirilməsi üçün əlverişli beynəlxalq şərait yaratmalı idi [68, 80].

Sosial islahatlar müharibədən sonrakı dövrə qədər təxirə salındı. Müharibə şəraitində vacib qərarların qəbul edilməsi prezident və onun ən yaxın müşavirlərinin (əsasən 1942-ci ilin əvvəlində yaradılmış Birləşmiş Qərargah Komitəsinin üzvləri və H.Hopkins) əlində mərkəzləşdirilməsi həyata keçirildi, o cümlədən dövlət departamentinin rolu zəiflədi. Ruzvelt və Hopkinsin rabitə məxfiliyini təmin etmək

məqsədilə diplomatik şifrələnmiş rabitənin əksinə hərbi kommunikasiyadan istifadə etmələri əlamətdardır. Nəticədə xarici siyasət idarəsi çox vaxt qəbul edilən qərarlardan xəbərsiz olurdu. Xarici əlaqələrlə bağlı bir sıra yeni departamentlər yarandı - Hərbi İnformasiya İdarəsi (təbliğat orqanı), İcarəyə Vermə İdarəsi, İqtisadi Müharibə İdarəsi və Strateji Xidmətlər İdarəsi (MKİ-nin sələfi). Effektiv müttəfiq koalisiyasının yaradılması müttəfiqlik münasibətlərində tarixi təcrübəyə malik olan Amerika diplomatiyası üçün vacib vəzifə idi. Xüsusilə, Böyük Britaniya ilə münasibətləri nümunə göstərmək olar. Ruzvelt Pearl-Harbora hücumdan sonra telefonla baş nazirə bildirmişdi: "Biz indi eyni qayıqdayıq" [60, 20].

Baş nazir Çörçilin mühasirədə olan Böyük Britaniyaya ümid kimi ABŞ-ı müharibəyə sürükləmək arzusu gerçəkləşdi. Öz növbəsində Vaşinqton da Britaniya adalarının və Britaniya imperiyasının digər resurslarının "ox ölkələri" ilə mübarizədə strateji əhəmiyyətini yaxşı bilirdi. 1941-ci il dekabrın sonunda İngiltərənin baş naziri Almaniya və Yaponiyaya qarşı birgə mübarizə planını müzakirə etmək üçün ABŞ-a gəldi. Ruzvelt və Çörçill arasında "Arkadiya"" kod adlı ikinci görüşdə qərargahı Pentaqonun yeni tikilmiş binasında yerləşən iki ölkənin Birləşmiş Qərargah Komitəsi yaradıldı. Qərargah İngiltərə-Amerika orqanlarının böyük şəbəkəsini əhatə edirdi, onların əsas hissəsi Ruzveltin baş köməkçisi H.Hopkinsin rəhbərlik etdiyi silah və sursatların bölüşdürülməsi komitəsi idi. Görüş zamanı "ox ölkələri" ilə mübarizənin hərbi strategiyasının əsasları formalaşdırıldı. Artıq mövcud olan anqlo-amerikan müttəfiq planlarında müharibədə yekun qələbənin həlledici şərti kimi Almaniyanın məğlubiyyətinə uğradılması əsas niyyət olaraq qeyd edildi. Tezliklə, Sakit okean ABŞ-ın hərbi əməliyyatlar zonasına çevrildi, Yaxın və Orta Şərq üstəgəl Hindistan Böyük Britaniyaya, Avro-Atlantik isə birgə və bərabər nəzarət zonası təyin olundu. Danışıqlar ümumi strateji planlaşdırma, insan və maddi resursların birləşdirilməsi, kəşfiyyat sahəsində əməkdaşlıq və atom silahlarının gizli işlənməsini əhatə edən ümumi düşmənə qarşı koalisiya müharibəsinin ortaq aparılmasının əsasını qoydu.

Birləşmiş Ştatlar ingilislərə müharibə prinsipləri və müharibədən sonrakı dünyanın təşkili haqqında bəyannamə imzalamağı təklif etdi. 1942-ci il yanvarın 1-də Vaşinqtonda SSRİ və Çin də daxil olmaqla 26 dövlətin nümayəndələri tərəfindən

bütün iştirakçılarla razılaşmalardan sonra imzalanmış “Birləşmiş Millətlər Təşkilatının Bəyannaməsi” Atlantika Xartiyasının müddəalarını təsdiqləmiş və bir növ anti-hitler koalisiyası üçün ideoloji platforma qurmuşdur. Bəyannamə Berlin-Roma-Tokio oxuna qarşı tam qələbəyədək mübarizədə “Birləşmiş Millətlər Təşkilatı”nın yarandığını açıqladı, ayrıca Üçlər ittifaqına aid ölkələrlə əməkdaşlığa qadağa qoydu və müharibəyə maddi töhfə verməyə hazır olan bütün ölkələrin imzalanması üçün açıq idi. “Hitlerizm üzərində qələbə” şüarı ilə müharibənin sonuna qədər bəyannaməyə daha 21 dövlət qoşulsa da onların əksəriyyətinin qələbədə real töhfəsi cüzi idi [26, 440-450].

Şərtləri iki ölkənin 1941-ci il martın 11-də imzalamış Lend-liz proqramı çərçivəsində Böyük Britaniya Amerika yardımının əsas alıcısı olmaqda davam edirdi. Proqram ABŞ-ın İngiltərəyə hərbi texnika, döyüş sursatı, avadanlıq, ərzaq və s. tədarükünün təmin edilməsini nəzərdə tuturdu və tədarüklərin ABŞ-ın razılığı olmadan üçüncü ölkələrə verilməsini qadağan edirdi. Müharibə illərində Amerikanın Böyük Britaniyaya “Lend-liz” çərçivəsində yardımının ümumi həcmi təxminən 22 milyard dollara çatmışdı və bu proqram ərzində şamil olunan dövlətlərə yardımın demək olar ki, yarısını təşkil edirdi. İngiltərə-ABŞ “xüsusi münasibətlərin” başlanğıcı bütün məsələlərdə harmoniya demək deyildi. Müttəfiqlər arasında İkinci Dünya müharibəsi ərzində yüksələn əməkdaşlığa baxmayaraq ciddi fikir ayrılıqları da var idi:

1) Resurs bazarları və xammal mənbələri uğrunda mübarizə;
2) Britaniya Birliyi ölkələri daxilində ticarət üstünlüklərinin qorunub saxlanılması (amerikalılar bunun aradan qaldırılmasını təkid edirdilər);
3) Britaniya koloniyalarının (ilk növbədə Hindistan) öz müqəddəratını təyin etmə hüququnun müdafiəsi;
4) London və Vaşinqtonun geosiyasi prioritetlərinin olduğu hərbi strategiya.

Sonuncu ziddiyyət müharibənin aparılmasında xüsusilə nəzərə çarpan amil olacaqdır. ABŞ ilə anti-hitler koalisiyasının digər əsas üzvü Sovet İttifaqı arasında münasibətləri daha mürəkkəb idi. Buna sosial sistemlərin müxalifəti, hərbi-siyasi dairələrdə və ABŞ ictimai rəyində antisovetizmin ünsürləri, SSRİ-nin nasistlərə

müqavimət göstərmək qabiliyyətinə inamın olmaması mane olurdu. ABŞ siyasi elitasının bəziləri kapitalist iqtisadi sistemə yad sosialist respublikaya yardım etməkdən çəkinirdilər. Şübhəsiz ki, Ruzvelt və onun yaxın ətrafı fərqli fikirdə idi. Onlar üçün Almaniya təhlükəsi hipotetik sovet təhlükəsindən qat-qat real və qorxuducu idi. ABŞ administrasiyası SSRİ-nin potensialını müsbət qiymətləndirir, ideoloji müxtəlifliyi ümumi düşmənlə mübarizədə əməkdaşlığa mane saymırdılar. Müharibənin ilk günlərində Ruzvelt istisna etmirdi ki, Sovet-Alman cəbhəsi sadəcə olaraq Vermaxt qüvvələrinin işğalçılığını yubandırmayacaq, eyni zamanda uzunmüddətli perspektivdə Avropanın işğaldan azad edilməsində başlıca rol oynaya biləcək.

"Lend-liz" proqramının Sovet İttifaqına şamil olunması çərçivəsində silah təchizatları təmin etmək və sovet hərbi komandanlığı ilə əlaqə saxlamaq üçün, müharibənin birinci yarısında koalisiyanın hərbi koordinasiyasında Sovetlərin iştirakına yer verildi. 1941-ci ilin dekabrına qədər ABŞ hərbi komandanlığı belə nəticəyə gəldi ki, yalnız SSRİ Vermaxtın qüvvələrini neytrallaşdıra bilər və bununla da ABŞ-ın hərbi-iqtisadi potensialını müharibə şəraitinə uyğunlaşdırmaq üçün vaxt qazana bilər ki, faşist ölkələrə qarşı genişmiqyaslı quru əməliyyatlarına imkan yaranacaqdır. Beləliklə, SSRİ-nin mümkün qədər uzun müddət müharibə aparmasına kömək etmək məqsədilə ona silah və məhsul tədarüklərini artırmaq lazım idi. Sözsüz ki, Pearl-Harbor döyüşündən sonra təchizatlarla bağlı vəziyyət daha da mürəkkəbləşdi. Amerika komandanlığının hərbi tələbatları kəskin şəkildə artdı, ona görə də SSRİ-yə "Lend-liz" əsasında yüklərinin daşınmasında tonnajlı yük gəmilərin çatışmazlığı problemi yarandı. Ruzvelt və Hopkins problem aradan qaldırmaq üçün çox səy göstərdilər, lakin 1941-ci ilin oktyabrında üç ölkə nümayəndələrinin Moskva görüşündə imzalanmış Birinci Protokol üzrə öhdəliklər tam yerinə yetirilməkdən uzaq idi. Müttəfiqlik münasibətlərinin əsas problemi ikinci cəbhə məsələsi idi.

Çin Vaşinqtonun planlarında mühüm rol oynayırdı. Çan Kayşi millətçi rejimi ABŞ-ın Asiyada əsas kvazidemokratik müttəfiqi idi. Ruzvelt həmin rejimin Yaponiya ilə yaxınlaşmasından çəkinərək hərbi və siyasi dəstəyin köməyi ilə amerikapərəst rejimə çevirməyə və Yaponiyanın təcavüzü yolunda Çindən sədd-maneə

yaradacağına ümid edirdi. Amerikalıların təkidi ilə “Arkadiya” konfransı zamanı Çan Kayşi Çin, Tailand və Hind-Çindəki müttəfiq qüvvələrin simvolik baş komandanı, amerikalı general C.Stilvel isə onun baş qərargahının rəisi təyin edildi. Tezliklə, Kuomintang rejimi ABŞ-dan yarım milyard kredit aldı. Vaşinqtonun Çini dövlət statusunda dəstəkləmək cəhdləri Çörçillin tənqidinə səbəb oldu. Əslində isə Amerikanın Çan Kayşi rejiminə hərbi yardımı çox məhdud idi [40, 500-501].

Qərb yarımkürəsində ABŞ-ın siyasəti Almaniyanın, qismən də Yaponiyanın Latın Amerikasında siyasi, iqtisadi və ticarət təsirinə məruz qoymamaq, habelə müharibə aparmaq məqsədilə qitənin resurslarından maksimum istifadə etmək idi. Amerika dövlətlərinin xarici işlər nazirlərinin 15-19 yanvar 1942-ci il tarixli Rio-de-Janeyro konfransında görüşü Panamerikanı faşist təhlüksinə qarşı birləşdirdi. Konfransda qərara alındı ki, suverenlik, ərazi bütövlüyü və ya siyasi müstəqilliyə hər hansı faşist təcavüzün bütün Amerika dövlətlərinə qarşı təcavüz aktı kimi qiymətləndiriləcəkdir. Konfransda qəbul edilən bəyannamədə “məhvər ölkələri”nə qarşı mübarizədə diplomatik əlaqələrin kəsilməsindən tutmuş hərbi əməliyyatlarda birbaşa iştiraka qədər tədbirlərin görülməsi tövsiyə olunurdu.

“Mehriban Qonşuluq” siyasəti ABŞ-a faşizmlə mübarizədə qitə həmrəyliyini gücləndirməyə kömək etdi. Latın Amerikası ölkələri (Çili və Argentina istisna olmaqla), tezliklə, “məhvər ölkələri” ilə diplomatik əlaqələri kəsdi. ABŞ-dan tam asılı olan Mərkəzi Amerika və Karib hövzəsi dövlətləri Almaniyaya müharibə elan etdi, Braziliya və Meksika da hərbi əməliyyatlara qoşuldu. Müharibə illərində Latın Amerikası ilə ABŞ arasında ticarət, iqtisadi, siyasi və hərbi əlaqələr yeni orqanlar şəbəkəsinin – Amerika dövlətlərarası Müdafiə Direktorluğunun rəhbərliyi altında Amerika dövlətlərarası Koordinasiya Departamentinin köməyi ilə əhəmiyyətli dərəcədə möhkəmləndi. ABŞ ixracının yarısı Latın Amerikasının payına düşürdü və qitə ölkələri mühüm strateji xammal mənbəyi və Amerika hərbi bazaları üçün əlverişli idi. Amerikanın maliyyə yardımının artması, ölkələrin iqtisadiyyatlarının sabitləşməsinə, eyni zamanda qitədə o zamanlar hökm sürən diktator hərbi rejimlərin mövqelərinin möhkəmlənməsinə kömək etdi [27, 173].

Anti-Hitler koalisiyasını formalaşdırmaqla yanaşı, Vaşinqton əks-blokun genişlənməsinin qarşısını almağa çalışdı. Buna görə də ABŞ diplomatiyasının diqqət subyektləri Franko İspaniyası və Vişi Fransası oldu. Franko rejiminin açıq şəkildə almanpərəst mövqeyinə baxmayaraq, ABŞ-Britaniya cütlüyü Qərbdən iqtisadi asılılığını artırmaq və İspaniyanın Cəbəllütariqi tutmasının qarşısını almaq üçün Madridi xammalla, xüsusilə neftlə təmin etdilər. Birləşmiş Ştatlar marşal Filipp Petenin kollaborasiyaçı hökuməti ilə diplomatik və ticarət əlaqələrini genişləndirirək onu Fransa koloniyalarını və donanmasını Almaniyaya təslim etməkdən və gələcək hərbi əməliyyatlara silahlı müqavimət göstərməkdən çəkindirdi. Eyni zamanda, Vaşinqton Londonda məskunlaşan, müstəqil və azğın general Şarl de Qollun rəhbərlik etdiyi "Azad Fransa" antifaşist təşkilatını Fransanın qanuni hökuməti kimi tanımadı [54, 340].

Qlobal müharibənin taleyi Üçlər ittifaqının daxilindəki münasibətlərdən asılı idi. 1942-ci ilin yayında Sovet-Alman cəbhəsində almanların yeni hücumu nəticəsində aşağı Volqanın və Bakı neftinin itirilməsi təhlükəsi yaranırdı. Asiyada yaponlar Sinqapur, Filippini və Yeni Qvineyanı işğal etdilər. Şimali Afrikada ingilislər Tobruku rüsvayçılıqla təslim etdilər, Atlantik okeanında isə alman donanması ingilis-amerikalıları mühasirəyə almışdı. Planet əhalisinin və resurslarının demək olar ki, üçdə biri faşist ölkələrinin nəzarəti altında idi.

ABŞ hərbi komandanlığı Almaniyaya hücumda "cəbhədən zərbə" konsepsiyasına əsaslanırdı. 1942-ci ilin martında Ordu Qərargahının Əməliyyat İdarəsi general D.Eyzenhauer rəhbərliyi altında "Roundup əməliyyatı"nın planını hazırladı. 1943-cü ilin yazında 48 diviziya tərəfindən La-Manş boğazı vasitəsilə Fransanın şimalına genişmiqyaslı hücum, eyni zamanda, SSRİ-nin məğlubiyyət təhlükəsi və ya Almaniyanın qəfil zəifləməsi halında 1942-ci ilin yay-payız aylarında 6-8 diviziya tərəfindən əməliyyat planlaşdırılırdı. London "periferik strategiyaya" sadiq qalaraq Qırmızı Ordu qüvvələri tərəfindən Vermaxtın gücünün zəifləməsini gözlədi. Periferiya – Aralıq dənizi və Balkanlara edilən hücumlar zamanı Britaniya İmperiyasının əsas kommunikasiya xətlərini qorumalı, almanların Süveyş kanalına və Britaniyanın ənənəvi təsir zonası olan Yaxın Şərqə keçməsinin qarşısını almalı idi.

Vermaxt ilə qızğın döyüşlərdə böyük itkilər verən Sovet İttifaqı təbii olaraq müttəfiqlərindən əsas hücum istiqamətində ikinci cəbhənin tez bir zamanda açılmasında maraqlı idi [54, 350].

ABŞ və Böyük Britaniya 1942-ci ilin aprelində London danışıqlarında ingilislər Vaşinqtonun təklifləri ilə razılaşdılar. "İkinci cəbhə"nin hücum əməliyyatları Şimali Afrikadan başlamalı idi, lakin ingilislərin həmin təkliflərlə uzlaşmırdılar və Şimali Afrika əvəzinə qoşunları Yaponiya ilə müharibəyə yönəltməyi təklif etdi. Qeyri-müəyyənlik şəraitində SSRİ-nin xarici işlər naziri Molotov "ikinci cəbhə" məsələsini həll etmək və Böyük Britaniya ilə müttəfiqlik müqaviləsi bağlamaq məqsədilə London və Vaşinqtona müvafiq olaraq 22 may -11 iyun 1942-ci il tarixində gizli səfər etdi. Londonda Molotov Çörçildən Avropada "ikinci cəbhə" açmaq üçün zəmanət ala bilmədi və təkcə ikitərəfli birlik müqaviləsi imzalamaqla məhdudlaşdı [50, 596].

SSRİ-nin Qərb müttəfiqlərinə olan ərazi tələbləri müqavilədə əks olunmaması Ağ Evin siyasi kursuna münasib idi. Ruzveltin "ikinci cəbhə" barəsində Molotovla danışıqları asan olmadı. Bununla belə, amerikalıların gizli proqnozlarında 1942-ci ildə SSRİ-nin məğlubiyyətin, hətta işğal olunmasının fəlakətli nəticələri olacağını, yəni Almaniyanın Avropa qitəsində tam hökmranlığını, Britaniya İmperiyasının dağılması, Yaxın Şərqdə işğalçı alman və yapon qüvvələrinin birləşməsini nəzərdə tuturdular. Molotovun təzyiqi altında və komandanların etirazlarına baxmayaraq, Ruzvelt danışıqlardan sonra kommünikedə "1942-ci ildə Avropada ikinci cəbhənin yaradılmasının təxirəsalınmaz vəzifələrinə dair tam razılığın əldə edilməsi haqqında" müddəanı təsbit etməyə razılaşdı. Prezidentin vədi hərbi əməliyyatların real tapşırıqlarını dəstəkləmirdi və daha çox psixoloji təsir göstərirdi, məqsəd düşməni ruhdan salmaq və rusların müqavimət iradəsini gücləndirmək idi. Danışıqların digər nəticəsi 23 fevral 1942-ci il tarixli Amerika-Britaniya müqaviləsinə bənzəyən qarşılıqlı yardım və təcavüzə qarşı birgə mübarizənin aparılması üçün tətbiq olunan prinsiplər haqqında sazişin imzalanması oldu, bu, sovet-amerikan münasibətlərini tənzimləyən vacib sənəd idi. 1943-cü il iyunun 30-dək SSRİ-yə tədarük haqqında

ikinci protokol da imzalandı, bu da 8 milyon ton materialın göndərilməsini nəzərdə tuturdu [50, 602].

İyul ayında Londonda keçirilən yeni ABŞ-Britaniya danışıqlarında C. Marşall və H. Hopkinsin tərəflərlə uzun sürən mübahisələri və Prezident Ruzveltin təkidi ilə Avropada ikinci cəbhənin açılması ən azı 1943-cü ilə, hətta Ordu Baş Qərargah rəisi C. Marşalın Ağ Evə tövsiyə etdiyi kimi 1944-cü ilə qədər təxirə salındı. 1943-cü ilin əvvəlində müharibə cəbhələrində vəziyyət müttəfiqlərin xeyrinə dəyişməyə başladı. 1943-cü il fevralın 2-də almanların Stalinqradda sarsıdıcı məğlubiyyəti, 1942-ci il noyabrın 8-də başlayan "Məşəl əməliyyatı"nın uğurla olması, ingilislərin 1942-ci ilin iyulunda Birinci Əl-Əlameyn qələbəsi və 1942-ci il 4-7 iyun ayında Miduey adası döyüşündə Amerikanın yaponlar üzərində qələbəsi müharibənin gedişində dönüş nöqtəsinin başlanğıcı oldu. "Məşəl əməliyyatı"nın uğuruna əməliyyatın baş komandanı D.Eyzenhauerin Fransanın Vişi hökumət qüvvələri komandanı arasında pərdəarxası razılaşma kömək etdi. Şimali Afrikada admiral F. Darlanın hərbi qüvvələri müttəfiqlərin desantına fəal müqavimət göstərməyəcək və müqabilində onu Şimali Afrikada Fransız hökumətinin başçısı olaraq tanıyacaqdılar. Kollaborasiyaçılarla "çirkli sövdələşmə" ABŞ və İngiltərə ictimaiyyətinin məyusluğuna səbəb olmuşdu [50, 611].

Ruzvelt, Çörçill və onların müşavirləri 1943-cü il yanvarın 14-də hərbi planların hazırlanması məqsədilə Kasablanka konfransında görüş keçirdilər. İngiltərə növbəti hücum əməliyyatların İtaliyaya edilməsini təklifini irəli sürdü. İngilislərin fikrincə, həmin hücum İtaliyanı süquta uğradacaq, müttəfiq qoşunlarının Balkanlara və Mərkəzi Avropaya yolunu açacaqdı, həm də Şimali Afrikada yerləşən müttəfiq qoşunlarından istifadə etmək üçün ən yararlı fürsəti verəcəkdi. Londona həmin əməliyyatın gizli saxlanılan əlavə üstünlüyü ondan ibarət idi ki, Xaski planı – Siciliya adasına qoşun çıxarılması Britaniya qüvvələri komandanlığı altında nisbətən zəif italyan rəqibinə qarşı aparılacaq və ona yeni ərazilər tutmağa şərait yardacaqdı. Konfransda Fransa ordusunun silahlanmasına qərar verildi [76, 50-55].

Müharibə dövründə baş verən siyasi-ideoloji transformasiya amerikalıları və ingilisləri müharibədən sonrakı nizamlanma üçün uzunmüddətli siyasi planları

müzakirə etməyə sövq etdi. BMT Nizamnaməsinin hazırlanması, yeni beynəlxalq maliyyə institutlarının yaradılması və nasizmdən azad edilmiş Avropa xalqlarına humanitar yardımın təşkili istiqamətində hər iki ölkənin gələcək birgə işi nəzərdə tutulmuşdu. 1943-cü il mayın 12-25-də Vaşinqtonda keçirilən növbəti İngiltərə-ABŞ konfransında müttəfiqlərin hərbi-strateji planlarına yenidən düzəlişlər edildi. Müttəfiqlər Şimali Afrikadan qüvvələrin bir hissəsinin Overlord əməliyyatının hazırlanmasına səfərbər etdilər. Buna baxmayaraq, konfransın ümumi nəticəsi Sovet İttifaqını məyus etdi və müttəfiqlərlə münasibətlərin kəskin soyumasına səbəb oldu. Stalin Ruzvelt və Çörçillə yazdığı məktublarda vurğulayırdı ki, “söhbət təkcə Sovet hökumətinin məyusluğundan deyil, onun müttəfiqlərə inamının sarsılmağından, ağır sınaqlardan keçməsindən gedir” [69, 32].

Vaşinqton və Londonda danışıqların mübadiləsində davamlı iştirak edən Sovet diplomatları M.M.Litvinov və İ.Mayski Moskvaya geri çağırıldı. Anqlo-amerikanların birtərəfli davranışları sovetlərin etimadını zəiflətdi: Fransız müqavimət qruplarını birləşdirmək cəhdləri və 8 sentyabrda sovet nümayəndələrinin iştirakı olmadan İtaliyanın yeni hökuməti marşal Pyetro Badalyo ilə barışıq imzalanması. 1943-cü ilin yayında Sovet-Alman cəbhəsində müharibənin gedişatında köklü dəyişikliyə səbəb olan Qızıl Ordunun Kurskda qazandığı qələbələr SSRİ-nin müharibədə həlledici rolunu açıq şəkildə göstərdi və Almaniyanın məğlubiyyətini qaçınılmaz etdi. Yeni kardinal reallığın təşəkkülü ABŞ-ın xarici siyasət qurumunda üç istiqamətdə müzakirələrin başlanğıc nöqtəsi oldu [69, 39-40].

Birinci qrupa Moskvadakı keçmiş səfir C. Bullit, general A. Vedemeyer, Dövlət Departamentinin və ordu kəşfiyyatının rəsmiləri daxil idi və onlar SSRİ-nin güclənməsinin ABŞ üçün açıq təhlükə hesab edir, o cümlədən SSRİ-ni dayandırmağın müxtəlif yollarını təklif edirdilər. Çörçillin Balkan planını dəstəkləməklə SSRİ-yə təzyiq vasitəsi olaraq istifadə etməyi təklif edirdilər.

İkinci qrupa C.Marşalın başçılıq etdiyi ABŞ Ordusunun Baş Qərargah üzvləri aid idi. Bu qrup Sovet İttifaqının Yaponiya və Almaniya ilə müharibədə həlledici rol oynadığını bildirir, hətta müharibənin sonunadək hər cür maddi-texniki resurslarla yardım göstərilməsinin tərəfdarı idilər. Şübhəsiz ki, Balkanlarda və Şərqi Avropada

sovet irəliləyişinə mane olmağın qeyri-mümkünlüyünü başa düşürdülər, ümumiyyətlə isə həmin bölgələri ABŞ maraqlarına, əsasən, vacib hesab etmirdilər. Eyni zamanda, Sovet İttifaqının müharibədən sonra düşmənə çevriləcəyini istisna etmirdilər. Bu və digər mümkün təhdidlərə qarşı ABŞ-ın hərbi-strateji, iqtisadi üstünlüyünə əsaslanan təhlükəsizlik şəbəkəsinə bənzər qlobal milli təhlükəsizliyin yaradılmasını nəzərdə tuturdular.

Üçüncü qrupun nümayəndələri F. Ruzvelt, H. Hopkins, vitse-prezident H. Uelles hesab edirdilər ki, SSRİ ABŞ-a immanent düşmən ölkə deyil və təkcə müharibə dövründə deyil, həm də müharibədən sonrakı dövrdə də tərəfdaş ola bilər. Bir şərtlə ki, dünya nizamının gələcək təhlükəsizlik hüquq-maraqlarına hörmət edilsin, Ruzveltin Çörçillə bildirdiyi kimi, "böyük güclər birliyinin tam tanınmış və bərabərhüquqlu üzvü" olsun. ABŞ başa düşürdü ki, müharibədən sonra davamlı sülh nəhəng dövlətin iştirakı olmadan ağlasığmazdır.

Müttəfiq planların koordinasiyası müharibənin həlledici mərhələsi yaxınlaşdıqca daha çox zərurət yaradırdı. Çin nümayəndəsinin ilk dəfə dəvət olunduğu 1943-cü il 14-24 avqust tarixlərinə qədər davam edən Kvebek konfransında növbəti İngiltərə-Amerika görüşü baş tutdu. ABŞ komandanlığı Overlord əməliyyatı üçün resursları cəmləşdirməkdə və İtaliyada döyüşləri dayandırmaqda israr etdi. Overlord əməliyyatı başladıqdan sonra Fransanın cənubuna qoşun çıxarılması ilə bağlı Anvil əməliyyatı da müzakirə edildi. Sovetlərin birbaşa iştirakının nəzərdə tutulduğu Yaponiyaya qarşı növbəti hərbi əməliyyatların planları konkretləşdirildi. Ümumi gündəliyə müharibədən sonra Almaniya və onun müstəmləkələrinə münasibət, azad edilmiş ölkələrin gələcək strukturunun müəyyən edilməsi, müharibədən sonrakı nizamlanmanın prinsipləri və mexanizmləri ortaya qoyulmuşdu. Vaşinqton və Londonun ciddi narahatlığı SSRİ-nin Polşada, Almaniyada gələcək sovetyönlü rejimləri hakimiyyətə gətirmək ümumiyyətlə, Qırmızı Ordunun azad etdiyi ərazilərin sovetləşdirilməsi perspektivi idi [73, 87].

Stalinin zirvə görüşündə iştirakına razılıq almayan müttəfiqlər hərbi və siyasi planlarını əlaqələndirmək məqsədilə üç ölkənin xarici işlər nazirlərinin görüşünü keçirməyə qərara aldılar. 1943-cü il oktyabrın 19-dan 30-a qədər davam edən

Moskva konfransı SSRİ, ABŞ, Böyük Britaniyanın ilk diplomatik forumu idi, burada geniş spektrli hərbi və siyasi məsələlər müzakirə olundu.

Konfransda ABŞ nümayəndə heyətinin əsas vəzifələri SSRİ-nin Yaponiya ilə müharibəyə girməsi ilə bağlı ən azı qeyri-rəsmi təminat əldə etmək, ikinci cəbhənin açılması ilə bağlı sovet tərəfini arxayınlaşdırmaqdan ibarət idi, o cümlədən Almaniyaya müharibədən sonrakı mövqeyi və müttəfiqlərin azad edilmiş ərazilərdə idarəetmə sistemi barədə razılığa gəlmək, BMT-nin yaradılması barədə Sovet dəstəyini almaq idi. Konfransın özündə ilkin razılaşmalar və danışıqlar nəticəsində BMT ilə bağlı dörd dövlətin bəyannaməsi qəbul edildi. Amerikalıların təkidi ilə bəyannaməni Çinin Moskvadakı səfiri də imzaladı. Bəyannamə müttəfiqləri faşist blokunun tam məğlubiyyətinə, qeyd-şərtsiz təslim və tərksilahına, məğlub olmuş dövlətlərə dair məsləhətləşmələr və onların silahlı qüvvələrini digər ölkələrdə nəzərdə tutulan məqsədlər üçün istifadə etməməyi nəzərdə tuturdu.

Avropada siyasi-ictimai quruluşun nizamlanmasının konkret məsələlərini həll etmək üçün qərargahı Londonda olan və məsləhətlər vermək hüququ olan üçtərəfli Avropa Məşvərət Komissiyası yaradılmışdır. Bəyannamənin dördüncü bəndində sülhün və təhlükəsizliyin qorunması məqsədilə beynəlxalq təşkilatın yaradılmasına birgə dəstək elan edildi. Hərbi məsələlərə gəlincə, anqlo-amerikalılar Overlord əməliyyatına hazırlıq barədə sovet tərəfini məlumatlandırdılar, lakin onun başlama vaxtını müəyyən etmədilər. Sovet rəhbərliyi, öz növbəsində, daha konkret öhdəliklər götürmədən Yaponiya ilə müharibəyə başlayacağını açıq şəkildə bildirdi. Konfransda Almaniyanın qeyd-şərtsiz təslim olması, kütləvi vəhşiliklərdə iştirak etmiş nasist cinayətkarlarının cəzalandırılması, İtaliya üzrə Məsləhət Şurasının yaradılması haqqında razılaşmalar əldə olundu. Ümumiyyətlə, konfransın nəticələri bütün tərəflər üçün müsbət oldu və Stalinin təklifi ilə 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək Tehranda baş tutan üç müttəfiq ölkə rəhbərlərinin görüşü üçün əlverişli şərait yaratdı.

Amerika diplomatiyası millətçi Çinə Asiyada özünün kiçik müttəfiqi kimi baxmağa davam edərkən, Yaponiyaya qarşı mübarizədə öz rolunu gücləndirmək və beynəlxalq statusunu yüksəltmək yollarını axtarırdı. Bu məqsədlə Yaponiyanın zəbt etdiyi Tayvan, Mancuriya və Peskador adalarının Çinə qaytarılmasını, eləcə də

Koreyaya müstəqilliyin verilməsini nəzərdə tutan Qahirə Bəyannaməsi 1943-cü ilin noyabr ayında imzalandı [73, 390-391].

"Ox ölkələri" ilə mübarizənin genişlənməsi müttəfiq dövlətləri birlikdə vahid diplomatik-strateji ittifaq halında hərəkəti zəruri edirdi. Nəticədə, müttəfiqlər aralarındakı konfliktlərə baxmayaraq düşmənə qarşı diplomatik danışıqları sürətləndirdi. Bu zaman ABŞ və Britaniya danışıqları xüsusi önəm daşımışdır.

# II FƏSİL. ANTİ-HİTLER KOALİSİYASININ FORMALAŞMASINDA ABŞ-IN ROLU

## 2.1. ABŞ-Böyük Britaniya və SSRİ arasında danışaqlarda Vaşinqtonun mövqeyi: Tehran, Yalta, Potsdam konfransları

Vaşinqton-London-Moskva xətti daxilində qüvvələr nisbəti ciddi şəkildə dəyişmişdi: ABŞ hərbi-iqtisadi potensialını səfərbər etmiş və silahlı qüvvələrinin sayına görə Böyük Britaniyanı xeyli ötmüş, SSRİ-nin mövqeləri isə böyük qüvvələr hesabına möhkəmlənmişdi. Çörçill Tehranda "balaca ingilis uzun qulağının nəhəng Amerika bizonu ilə nəhəng rus ayısı arasında itdiyini" deməsi səbəbsiz deyildi. London Vaşinqtonla münasibətdə, o cümlədən Çörçillin İtaliyanın şimalında və ya Egey adalarında periferik əməliyyatlarla tamamlamağa çalışdığı ikinci cəbhə məsələsində özünü yüksək səviyyəli tərəfdaş olaraq aparırdı [35, 65-68].

ABŞ komandanlığının isə Overlord əməliyyatı prioritetinin lehinə əvvəlki arqumentlərinə yeni geosiyasi motiv əlavə edildi – Sovet İttifaqının Avropada genişlənməsinin qarşısını almaq və bununla da müharibədən sonrakı nizamlanmada üstün təsir əldə etmək istəyi idi. Admiral E.Kinq ABŞ Hərbi Qərargahında Birləşmiş Ştatlar və Böyük Britaniya Almaniyanı məğlub etmək üçün qəti addımlar atmasalar, SSRİ-nin sülh danışıqları masasında hökmranlıq edəcəyi xəbərdarlığını etdi. Təəccüblü deyil ki, 1943-ci ilin noyabr ayının 28-dən dekabrın ayının 1-dək "Evrika" şərti adlı Tehran konfransında Ruzvelt nəzərdə tutulduğu kimi Stalinin ikinci cəbhənin açılması tələbini dəstəklədi. İkinci cəbhənin Normandiyadan başlanması, habelə onun hərbi strategiyasının qərara alınması konfransın ən mühüm nəticəsi oldu. Digər mühüm nəticə Sovet tərəfinin Almaniyanın məğlubiyyətindən sonra Yaponiya ilə müharibəyə girmək haqqında öhdəliyi idi ki, bu da Amerika tərəfi tərəfindən böyük məmnunluqla qarşılandı. Müharibə illərində ilk dəfə olaraq üç müttəfiqin – Stalin, Ruzvelt və Çörçill birbaşa görüşü baş tutdu və ümumi düşmənlə mübarizə üçün vahid strategiya hazırlandı. Konfransda Keniqsberq və ətraf ərazilərin Sovet İttifaqına verilməsi barədə razılıq əldə edildi. Almaniya və Yaponiyanın müharibədən sonrakı taleyi ilə bağlı fikir mübadiləsi aparıldı. Stalinlə üç şəxsi

söhbətində Ruzvelt "dünya polisi" ideyasını və üç böyük gücün aparıcı roluna əsaslanan birləşmiş təşkilatın mümkün strukturunu müzakirə etdi. Hər üç lider təcavüzkarları (ilk növbədə Almaniya və Yaponiya) nəzarətdə saxlamaq üçün birgə strateji bazaların yaradılmasında maraqlı olduqlarını nümayiş etdirdilər. Konfransın nəticəsi olaraq qarşıdan gələn hərbi əməliyyatlar və onların həm müharibə zamanı, həm də sonrakı sülh dövründə birgə işləmək əzminə dair “tam razılıq” ifadə edilən üç dövlətin bəyannaməsi qəbul edildi. Müttəfiq qüvvələr İranın suverenliyinə və ərazi bütövlüyünə zəmanət verdi və bəyannamə imzaladı. Tehran konfransı "Böyük Üçlük"ün qarşılıqlı fəaliyyətini gücləndirdi və ümumilikdə ABŞ-da Amerikanın xarici siyasətinin uğuru və “ox ölkələri”nin yekun məğlubiyyətinin təminatı olaraq müsbət qarşılandı.

1944-cü il Amerikanın müharibəyə təsir və faydalarının genişlənməsində dönüş ili oldu. Hərbi istehsal pik həddinə çatdı, müharibənin sonuna qədər ABŞ 86 min tank, 120 min artilleriya qurğusu, 207 min təyyarə, 2.4 milyon yük maşını, 83 min desant gəmisi və digər hərbi gəmilər istehsal etdi. Müttəfiqlərin müharibə istehsalının təxminən 60%-i ABŞ-ın payına düşürdü. Müttəfiqlərə kredit-icarə tədarükü maksimum həddə çatdı: ümumilikdə müharibə illərində bu məqsədlər üçün 55 milyard dollar xərclənmişdi ki, bunun da 11 milyard dolları Sovet İttifaqına yardıma sərf edilmişdir. ABŞ-ın quru qoşunları (ordu aviasiyası ilə birlikdə) 8.2 milyon, hərbi dəniz qüvvələri isə 3.4 milyon hərbi personala malik idi. Fransaya müdaxiləyə hazırlıq tam sürətlə gedirdi, Sakit Okeanın cənub-şərqində hücum əməliyyatları aparılırdı, getdikcə daha çox əraziləri ələ keçirilirdi. Bütün bunlar ABŞ-ın “Böyük Üçlük” daxilindəki mövqeyini gücləndirdi. Müttəfiqlərin 1944-cü il iyunun 6-da Normandiyaya (Şimali Fransa) daxil olması ilə ikinci cəbhənin açılması, Stalinin vəd etdiyi yeni Baqration Sovet hücum əməliyyatı ilə birlikdə Avropadakı strateji vəziyyəti kökündən dəyişdirdi. İki əks müttəfiq orduları 1944-cü ilin iyun-avqust aylarında Baqration əməliyyatı adı ilə Şərq cəbhəsində 700 minlik Vermaxt silahlıları ilə müqayisədə 1.2 milyonluq sovet silahlı qüvvələrinin toqquşması baş verdi. Sentyabr ayına qədər Sovet qoşunları Vistulaya çatanda almanların Qırmızı Ordudan itkiləri 900 mindən çox idi. Bu arada Moskva özünün qərb sərhədləri

boyunca sovetyönlü dövlətlərin qoruyucu kəməri yaratmaq cəhdi ilə işğaldan azad edilmiş ərazilərdə öz təsirini maksimum dərəcədə gücləndirmək xəttini davam etdirirdi. SSRİ-nin rolunun minimuma endirildiyi müttəfiqlərin İtaliyadakı fəaliyyətindən presedent kimi təcrübə qazanaraq Sovet hakimiyyəti Almaniyanın keçmiş "peykləri"nin təslim olması və atəşkəs şərtlərini özü müəyyənləşdirdi, müttəfiqlərin iştirakını kəskin şəkildə məhdudlaşdırdı. Ruzvelt realist olmaqla, böyük dövlətlərin təsir dairələrinin qaçılmazlığını başa düşürdü, çünki senatorlarla qapalı görüşdə: "Ruslar Şərqi Avropada güc mərkəzinə malikdirlər və çıxış yolu vəziyyəti yumşaltmaq üçün öz təsirimizdən istifadə etməkdir" fikrini ifadə etmişdir. "Vəziyyəti yumşaltmaq" həm də daxili siyasi səbəblərə görə zəruri idi, çünki administrasiya artıq bu kiçik ölkələrin maraqlarına "xəyanət" etdiyinə görə (xüsusilə Baltikyanı və Şərqi Avropa lobbiləri tərəfindən) tənqid olunmuşdu. Dövlət Departamentinin ekspertlərinin təklif etdiyi şey Sovet təsir dairəsini Amerika ideyalarına, kapitalına və mallarına açıq saxlamaq idi. Bu yolla Ruzvelt Sovet ehtiyaclarını Amerika maraqlarına nüfuz etdirməyə çalışırdı [33, 227-228]. Bu baxımdan ən həssas məsələ Londonda məskunlaşmış mühacir Polşa hökumətinin barışmaz düşmənçiliyi ilə üzləşdiyi Moskvanın onun gələcək sərhədləri və hökuməti məsələsi idi. 1943-cü ilin yazında bəri ABŞ və İngiltərə diplomatiyası tərəfləri barışdırmaq üçün fəal səylər göstərdi, lakin bu cəhdlər polyakların rusfobiyası ilə nəticələnərək uğursuzluğa düçar oldu. London polyaklarının inadkarlığı, digər tərəfdən isə sərt tələblər Moskvadan qondarma "Kurzon xətti"nin yeni Sovet-Polşa sərhədi kimi tanınması və onun himayədarlarının gələcək Polşa hökumətinin tərkibinə daxil edilməsini tələb edirdi.

Şarl de Qollun rəhbərlik etdiyi Fransa Milli Azadlıq Komitəsi ilə münasibətlər Vaşinqton üçün yeni əhəmiyyət kəsb edirdi. Müttəfiq qoşunlarının Fransaya enməsi və onların ölkənin daxili ərazilərinə doğru irəliləməsi Fransa Müqaviməti Qüvvələri ilə qarşılıqlı əlaqəni tələb edirdi, lakin Ruzvelt hələ də Komitəni Fransanın müvəqqəti hökuməti kimi tanımaqdan imtina edirdi. O, generalın avtoritar davranışının ölkədə parçalanmaya səbəb olacağına inanaraq Şarl de Qollun siyasi gələcəyinə inamı yox idi. Bundan əlavə, prezident qorxurdu ki, Şarl de Qoll Fransanın imperiya ənənələrini qorunub saxlanmasını davam etdirəcək və Amerikanın strateji əhəmiyyətli Dakar

ərazisini ABŞ hərbi komandanlığı altında etibarlı əraziyə çevirmək planlarına mane olacaq. Yalnız 1944-cü ilin iyulunda generalın Vaşinqtona səfərindən sonra Komitə Fransada dövlət hakimiyyətinin faktiki əsası olaraq tanındı və münasibətlər getdikcə yaxşılaşmağa başladı. Oktyabrın sonunda Ağ Ev Fransa Milli Azadlıq Komitəsini rəsmən tanıdı, bu da Fransanın ABŞ-ın tam müttəfiqi olaraq qayıtması demək idi. Sonradan Ruzvelt artıq Şarl de Qollun Fransanın Hind-Çin üzərində nəzarətini bərpa etmək səylərinə qarşı çıxmadı [19, 661].

ABŞ-ın neftlə zəngin İrana iqtisadi nüfuzu da nəzərəçarpacaq dərəcədə artdı, burada 1944-cü ildə İran neftinə çıxış əldə etməkdə iki ölkə arasında rəqabəti tənzimləmək üçün İngiltərə-Amerika neft sazişi bağlandı. Beləliklə, artıq müharibə illərində ABŞ-ın Yaxın Şərqdə iqtisadi və hərbi mövcudluğunun başlanğıcı qoyuldu ki, bu da sonralar ABŞ xarici siyasətinin mühüm regional prioritetinə çevriləcəkdi.

1944-cü il sentyabrı ayının 11-16-sı arasında Kvebekdə ingilis-amerikan konfransı müharibənin son dövrü üçün birgə planların işlənib hazırlanmasına həsr olunmuşdu. Almaniyanın işğal zonalarının iki ölkə arasında bölüşdürülməsini təsdiq etdi - ölkənin şimal-qərb hissəsi amerikalılar, cənub-qərb hissəsi isə ingilislər tərəfindən işğal edilməli idi. Almaniyanın hərbi-iqtisadi strukturunun tamamilə aradan qaldırılmasını və sənayesizləşdirilməsini nəzərdə tutan, ABŞ maliyyə nazirinin adını daşıyan "Morqentau planı" qəbul edildi. Çörçill Almaniyanın bu cür bölüşdürülməsinə qarşı idi, lakin müharibə başa çatdıqdan sonra amerikalıların Britaniyaya Lend-liz proqramını uzatmaq razılığını nəzərə alaraq şərtləşdi [12]. Tərəflər SSRİ-nin qərbə doğru daha da irəliləməsinə qarşı mübarizə imkanlarını müzakirə etdilər, lakin Ruzvelt Çörçillin növbəti Balkan meyllərini dəstəkləməkdən imtina etdi, yalnız Yunanıstanda başlayan vətəndaş müharibəsini dayandırmaq məqsədilə ingilis desantının çıxarılması ilə razılaşdı. Bu vaxta qədər Amerika-Çin ittifaqında ciddi çatlar yaranmışdı. Çan Kayşi inadla Yaponiya ilə müharibədə ona təklif olunan öncül lider rolunu oynamaqdan imtina etdi, kommunistlərlə vətəndaş müharibəsində yeni silahlı müqavimət hərakatları üçün güc toplamağa üstünlük verdi. Yaponlar isə Çinin şərq sahillərində öz mövqelərini möhkəmləndirdilər. Buna görə Ruzvelt Çan Kayşidən Yaponiyaya qarşı mübarizəni gücləndirməyi və komandanı

general Stilvelə təhvil verməyi tələbini irəli sürdü. Kvebekdə təsdiqlənmiş Yaponiya ilə müharibəni bitirmək planlarında Çinə kiçik tərəfdaş kimi ikinci dərəcəli rol verildi və əsas pay Filippinin ələ keçirilməsinə və sonradan Yapon adalarına irəliləməsinə yönəldildi. Eyni zamanda, Amerika komandanlığı düşməndən şiddətli müqavimət gözləyirdi və Almaniyanın məğlubiyyətindən sonra Yaponiya ilə müharibənin daha bir il yarım davam edəcəyini proqnozlaşdırırdı.

F. Ruzveltin müharibədən sonra sülhü qorumaqda əsas ümidləri yeni beynəlxalq təşkilatının yaradılması ilə bağlı idi. Millətlər Liqasının acınacaqlı təcrübəsini nəzərə alaraq, prezident, birincisi, yeni təşkilatı böyük dövlətlərin xüsusi rolu və ona daha geniş sülhməramlı səlahiyyətlər verməklə daha effektiv etməyə, ikincisi, onun işində Amerikanın fəal iştirakını təmin etməyə çalışırdı. Tezliklə Böyük Britaniya və Sovet İttifaqı BMT-nin nizamnaməsinin hazırlanmasına qoşuldular. Yekun layihəni hazırlamaq məqsədilə müttəfiqlər avqustun 21-dən oktyabrın 7-dək Birləşmiş Millətlər Təşkilatının əsas parametrlərinin razılaşdırıldığı Dumbarton Oaks (Vaşinqton) konfransında toplandılar [17, 49]. Millətlər Liqasından fərqli olaraq, nizamnamə layihəsində böyük dövlətlərin Təhlükəsizlik Şurasında xüsusi hüquqları nəzərdə tutulurdu. Bununla belə, bir sıra məsələlər həll olunmamış qaldı. Onlardan ən mühümləri təşkilata üzvlük məsələsi və Təhlükəsizlik Şurasında səsvermə proseduru idi. Ziddiyətlərə baxmayaraq, konfransın sonunda müəyyən qədər üzvlük və səlahiyyətlərlə bağlı natamam razılıq əldə edildi.

Müasir müharibənin dağıdıcı xarakterini və "ox ölkələri"nin nümayiş etdirdiyi qəfil hücumun üstünlüklərini nəzərə alaraq, ABŞ hərbi komandanlığı indi nəinki gələcək təcavüzkarı qətiyyətlə dəf etməyə, həm də ona qarşı qabaqlayıcı zərbələr endirməyə hazır strategiya müəyyənləşdirdi. Nüfuzlu strateq E.Earl yazırdı: "Müdafiə anlayışı, sülh anlayışı kimi, əsasən, öz əvvəlki mənasını itirdi. Əgər ölkə qabaqlayıcı zərbə endirməyə hazır deyilsə, o, effektiv müdafiə qabiliyyətinə malik ola bilməz". Amerika strategiyasında başqa bir fundamental dəyişikliyə – qitə müdafiəsi konsepsiyasından və ya müharibədən əvvəlki strateji planlaşdırmanın əsası kimi xidmət edən Qərb yarımkürəsinin müdafiəsindən qlobal müdafiə konsepsiyasına keçidə töhfə verdi. "Praktikada biz təhlükəsizliyimizin əsası kimi yarımkürənin müdafiəsi ilə kifayətlənə bilmərik" deyən C.Marşall əlavə edərək: "biz dünya sülhünün qayğısına qalmalıyıq" ifadələrini bildirdi [74, 53]. Bu yeni nəzəriyyəyə görə müharibələrin uğursuzluqlarının qarşısını almaq məqsədilə ABŞ dünyanın əsas strateji regionlarında daimi hərbi mövcudluğa malik olmalı və potensial təcavüzkarı yatırmaq üçün kifayət qədər qlobal gücə malik olmalı idi. Müharibə illərində öz təsirini kəskin şəkildə artıran geosiyasət məktəbinin hesablamalarına uyğun olaraq (H.Makkinder, N.Spaykmen) və hər iki dünya müharibəsinin təcrübəsini nəzərə alaraq, Avrasiyanın quru məkanı, Birləşmiş Ştatlara düşmən olan dövlət və ya dövlətlər koalisiyasının nəzarəti Amerikanın həyati maraqları üçün qəbuledilməz olmasını bildirdilər. ABŞ-ın daimi hərbi mövcudluğu üçün əlçatmaz olan Avrasiya məkanının dərinlikləri, Heartlandın əksinə hərbi gücü çatdırmaq mümkün olan Rimlandda əsas strategiyanın qurulması haqqında Spaykmenın geosiyasi yanaşması daha mütəhərrik idi. Artıq müharibədən sonrakı dövrdə xarici hərbi bazaların yaradılması üzrə ilk planda Atlantik və Sakit Okean, eləcə də ABŞ-ın dominantlığını təmin etməklə ABŞ müdafiəsinin strateji perimetrinin Qərb yarımkürəsindən kənarda, xüsusilə Uzaq Şərqdə genişləndirilməsi nəzərdə tutulurdu. ABŞ Qərargahı dayaq

bazalarının yerləşdirilmə sahəsi üzrə Sakit Okean (Yeni Zelandiyadan Filippindən Alyaskaya və Aleut adalarına qədər), Arktika hava dəhlizi (Nyufaunlend və İslandiya), Şərqi Atlantik (Azor adaları), Karib dənizi və Panama kanalı zonası, həmçinin Manila - Banqkok - Ranqun - Kəlküttə - Dehli - Karaçi - Dhahran - Qahirə - Tripoli - Kasablanka xəttində hava tranziti üçün daimi nəzarətin təmin edilməsi lazım idi. Bu qlobal hərbi infrastruktur təkcə ABŞ-ı kənar hücumlardan qorumaq üçün deyil, həm də dünyanın istənilən bölgəsində düşməni məğlub etmək imkanını təmin etməli idi. Eyni dərəcədə vacib olan, ABŞ ərazisinin müharibə meydanına çevrilməsinə mane olacaqdı. Beləliklə, müharibə bir tərəfdən ABŞ-ın yeni nəhəng imkanlarının, digər tərəfdən isə yeni potensial təhlükələrin Vaşinqtonu beynəlxalq sabitliyin qorunması üçün mümkün və zəruri şərt olaraq Amerikanın qlobal liderliyi ideyasına gətirib çıxardı. Ölkənin hərbi-siyasi elitasının hər iki dünya müharibəsinin birgə təcrübəsindən götürdüyü qənaət ondan ibarət idi ki, Birləşmiş Ştatların rəhbərliyi və himayəsi olmasa, "Köhnə Dünya" yenidən vaxtaşırı xaosun qurbanına çevriləcək. Amerika prinsiplərinin universallığına və Amerika gücünün xeyirxahlığına inamı ilə xaricdəki respublikalar üçün ənənəvi olan messianizm indi ilk dəfə olaraq dünyanın ən güclü hərbi-iqtisadi potensialına arxalanacaq. Vilsonçuluqdan sonra ABŞ-ın himayəsi altında yeni dünya nizamı yaratmaq cəhdi indi Vaşinqtona nəinki daha təcili, həm də daha çox mümkün görünmüşdür [81, 1].

Panamerikanizm ideologiyasının hərbi güc ölçüsü ABŞ-ın dünyada asayişi qorumaq və yeni böyük müharibələrin qarşısını almaq üçün nəzərdə tutulmuş "dünya polisi" kimi yeni rolu idi. Hərbi siyasətin məqsədləri artıq ABŞ-ın özünün təhlükəsizliyinin təmin edilməsi ilə məhdudlaşmırdı, konsepsiyasında qeyd edilir ki, ölkənin təhlükəsizliyini, firavanlığını və tərəqqisini bütün dünyada sülhün qorunması vasitəsi ilə qurmaq olar. ABŞ-ın düşmənləri üzərində hərbi üstünlüyünün saxlanması hərbi təcavüzkarların qarşısının alınmasının əsas vasitəsi olaraq dünya münaqişələrinin məhdudlaşdırılmasında zəruri şərt kimi qəbul edilirdi. J. Forrestal konqresdəki müzakirələrdə bildirirdi ki, təhdidlərin qarşısını o zaman ala biləcəyik ki, heç kim bizə qarşı müharibədə elan edə bilməsin. Nəhayət, ABŞ liderlik konsepsiyasının bütün əsas komponentlərini formalaşdırdı: təhlükəsizliyin qlobal

anlayışı və Amerikanın dünyada yeni aparıcı rolu, hədsiz strateji hərbi üstünlüyün saxlanması zərurəti, daimi döyüş hazırlığı, birtərəfli və hətta fəal şəkildə hərbi gücdən istifadə etmək [14, 19-22]. Yalnız bu yeni qlobal ambisiyaları praktiki əsaslandıra biləcək əsl rəqib çatışmırdı. 1945-ci ildə qapalı hərbi-siyasi qiymətləndirmələrdə bu rol tədricən Sovet İttifaqına həvalə olunmağa başladı, habelə SSRİ-nin geosiyasi vəziyyətinə görə yeni qlobal miqyasda rolu üçün zəruri olan bir sıra xüsusiyyətlərə malik olması səbəbindən: Avrasiyanın mərkəzində, Heartlanddə yerləşməsi, müharibə zamanı nümayiş etdirilən nəhəng hərbi resurslar və müharibə gücü, ABŞ-a yad olan universal ideologiya və siyasi sistem bunlara daxildir.

Hərbi güc müharibədən sonra ABŞ-ın təhlükəsizliyini təmin etmək üçün əsas, lakin yeganə alət hesab olunmurdu. ABŞ liderləri təhlükəsizliyi və müharibədən sonrakı dünya nizamını açıq bazar iqtisadiyyatı və liberal demokratiyanın Amerika modelinin yayılması, habelə BMT, Dünya Bankı, BVF və Birləşmiş Millətlər Yardım və Yenidənqurma İdarəsinin (UNRRA) köməyi ilə onun iqtisadi və siyasi təsirinin genişlənməsi ilə əlaqələndirdilər [39, 129].

Birləşmiş Ştatların müharibədən sonrakı inkişafı planlarında əsas dəyişən sovet amili – gələcək dünya düzənində SSRİ-nin rolu və yeri məsələsi idi. Əslində Sovet İttifaqının yeni dünya dövləti kimi yüksəlişi Vaşinqtonu dilemma qarşısında qoydu: Ya İkinci Dünya müharibəsinin hərbi-siyasi nəticələrini, SSRİ-nin və özünün genişlənmiş təsir dairəsinin legitimliyini nəzərə alaraq onu tərəfdaş və bərabərhüquqlu dövlət olaraq tanımaq, ya da Sovet İttifaqının nəzarətində olan geosiyasi məkanı tədricən yenidən ələ keçirmək, iqtisadi və hərbi üstünlüyünə arxalanaraq onu dünya siyasətindən kənarlaşdırmaq. Müharibənin sonunda Amerikanın xarici siyasət müzakirələrində bu problemin həlli üçün müxtəlif variasiyalar müzakirə edildi. Ruzveltin SSRİ-yə müharibədən sonrakı nizamlanmada beynəlxalq münasibətlərdə zəruri və bərabərhüquqlu subyekt olaraq baxışı əvvəlki gücünü sürətlə itirsə də, hələ də müəyyən qədər saxlanılırdı. Görkəmli siyasətçilər V.Lippmann, H. Baldvin və C. Fişerin ingilis-amerikan və sovet təsir dairələrinin nisbətən dinc yanaşı yaşamasının mümkünlüyü haqqında fikirlər irəli sürmüşdülər [24, 341]. Müəlliflərin fikrincə, davamlı sülhün qorunmasının əsas şərtləri bir-birinin

təsir dairələrinə müdaxilə etməmək və ideoloji fərqlərdən asılı olmayaraq hər iki tərəfin mübahisəli məsələlərdə razılığa gələ bilməsi idi. İki fövqəldövlətin köklü maraqlarının toqquşması səbəbindən belə birgə münasibətlərə qeyri-mümkün hesab edən SSRİ-nin əleyhdarlarının mövqeləri də çoxluq təşkil edirdi. Bu mövqeyin ilk müfəssəl geosiyasi əsaslandırması "Birləşmiş Ştatlar Siyasətinin Problemləri və Məqsədləri" hesabatında əksini tapmışdır. Hesabatda SSRİ ekspansionist istəkləri və resursları sayəsində Birləşmiş Ştatlar üçün indiyə qədər məlum olan ən məşum təhlükəyə çevrilməyə qadir olan yeni "Avrasiya hegemonu" kimi meydana çıxdı. Bu təhlükənin neytrallaşdırılmasında əsas vasitə Yaponiyada sovet təsirini minimumlaşdırma, o cümlədən Almaniya və Çinə yayılmasının qarşısını almaq, habelə ABŞ-ın eşelonlaşdırılmış müdafiə sistemi yaratmaq təklifi edilirdi. Onun birinci xətti Avropadakı Amerika-Qərbi Avropa hərbi-siyasi bloku, ikincisi İslandiya və Qrenlandiyadan Karib hövzəsinə qədər hərbi bazalar şəbəkəsi və üçüncüsü bütün Amerikanın ümumi müdafiəsi sistemi idi.

İkinci Dünya Müharibəsindən sonra yeni fövqəldövlətlər olan ABŞ və SSRİ öz mövqelərinin və ideologiyalarının üstünlüyünü dünyada bərqərar etmək istədilər və bu mübarizə beynəlxalq münasibətlərin mərkəzinə çevrildi. Bu iki güc rəqabəti gücləndirəcək bir-birinə qarşı bloklar yaratdılar. Əksər qərb ölkələri ABŞ-ın tərəfinə keçməyə meyilli idi və kommunizmə qəti şəkildə qarşı idi, ancaq dünyanın "Amerika üslubu"nun yaradılması və ABŞ-ın dünyada dominant rolu SSRİ-də "kommunizmin qələbəsi" inamı ilə üst-üstə düşmürdü. Axı Sovet İttifaqı faşizmə qarşı mübarizədəki uğurları və beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsini dünya sosialist sisteminin formalaşması üçün ilkin şərt hesab edirdi [21, 31-32]. K.V.Pleşakovun qeyd etdiyi kimi, Qərbin müstəqil dövlətlərinin sərhədlərinin toxunulmazlığından qorxmasında ciddi səbəbləri var idi, çünki Stalinin özü SSRİ-ni "dünya inqilabının bazası" adlandırırdı. Bir vaxtlar Lenin tərəfindən Sovet xarici siyasətinin əsas prinsipi kimi irəli sürülmüş dinc yanaşı yaşamaq Stalin tərəfindən yalnız sözdə qalmışdı. SSRİ, onun fikrincə, dünya inqilabının təşkilatçısı rolunu oynamalı idi. Amerikanın fövqəldövlət statusuna yüksəlməsi nüvə silahına malik olması ilə tamamlandı. Çox keçmədən 1949-cu ildə SSRİ nüvə silahına sahib oldu və Amerikanın üstünlüyünə

son qoydu. Sovet İttifaqı ilə qərb ölkələri arasında uzun müddət şübhə və etimadsızlıq hökm sürürdü. Sovet İttifaqı heç vaxt unuda bilməzdi ki, Qərb dövlətləri və ABŞ (İngiltərə, Fransa) bolşevik inqilabına qarşı mübarizə aparmışdılar, Qərb ölkələri isə unutmadılar ki, Sovet İttifaqının bəyan etdiyi məqsəd bütün dünyada kapitalizmə son qoymaqdır. Tarixdə ilk dəfə idi ki, iki fərqli ictimai-siyasi quruluş forması dünyanın alternativ baxışlarını nüfuz etməkdə yarışırdı. XX əsrin əvvəllərindən həm ABŞ, həm də SSRİ fövqəldövlətlərə çevrilmək yolunda idi. 1932-ci ildə "Böyük Depressiya"dan dərhal sonra müxtəlif ölkələrin istehsalda payının müqayisəsi Amerikanın 32%-ə yaxın, 11.5%-lə ondan sonra gələn Sovet İttifaqının şəksiz lider olduğunu göstərirdi. İkinci Dünya müharibəsində Almaniya və Yaponiya silahlı qüvvələri məğlubiyyətə uğradı, İngiltərə və Fransa isə demək olar iqtisadi yöndən tükəndi. İndi supergüclər kimi meydana çıxan iki ölkə – ABŞ və Sovet İttifaqı idi. Sovet İttifaqı müharibədə böyük itkilərə baxmayaraq, sosialist idari-iqtisadiyyatı sayəsində sürətli inkişafa nail oldu. Bu ölkələrin fenomenal yüksəlişi ikisi arasında rəqabətə səbəb oldu və nəticədə Soyuq müharibə ilə nəticələndi. Sovet İttifaqı Kominformu (Kommunist İnformasiya Bürosu) yaratdı və digər ölkələrdəki kommunist partiyalarını dəstəklədi. Amerika ştatları "Amerikanın Səsi" adlı Radio Xəbərlər proqramı qurdu və digər ölkələrdəki antikommunist siyasi partiya və hərəkatları dəstəklədi. İki ölkə arasındakı münaqişə hər iki ölkənin qəbul etdiyi fərqli ideologiyalar arasında antoqonist ziddiyyətə çevrildi. Bu ideologiyalardan biri Amerikanın qəbul etdiyi siyasi və iqtisadi liberalizm, digəri isə SSRİ-nin qəbul etdiyi marksizm-leninizm idi.

İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra SSRİ ilə Qərb müttəfiqləri arasında münasibətlər sürətlə pisləşməyə başladı. 5 mart 1946-cı ildə Böyük Britaniyanın keçmiş Baş naziri V.Çörçill ABŞ-ın Fulton şəhərindəki Vestminster kollecində ABŞ Prezidenti Harri Trumenin iştirakı ilə etdiyi çıxışında "ingilisdilli xalqların qardaşlıq birliyi"nin məqsədlərini formalaşdırdı və Qərb blokuyla birlikdə SSRİ və kommunizmə qarşı azadlığın və insan haqlarının prinsiplərini müdafiə etmək üçün birləşməyə çağırdı. İlk dəfə siyasi termini adını alan "dəmir pərdə"nin Sovet İttifaqına qarşı təsis edilməsini vacibliyini dilə gətirdi. "Baltikdəki Şeçindən Adriatikdəki Triestə qədər dəmir pərdə Avropa qitəsi üzərində sərhəd olmalıdır"

ifadəsini bildirdi. Bununla da Soyuq müharibənin başlanğıcı Çörçillin Fulton çıxışı ilə beynəlxalq münasibətlərdə yeni dövrün səhifələrinə daxil oldu [49, 2].

ABŞ-ı "Soyuq müharibə" illərinin başlanmasında maraqlarını qısaca ümumiləşdirərək aşağıdakıları qeyd etmək olar:

a) Kommunizm ideologiyası və onun yayılması qorxusu;
b) Amerika millətinin təcridçilik psixologiyasını aradan qaldırmaq üçün müharibə obrazının yaradılması zərurəti;
c) İqtisadi maraqlar;
d) Amerika vətəndaşlarının diqqətini daxili problemlərdən yayındırmaq zərurəti.

ABŞ prezidenti 1947-ci ilin yazında özünün "Trumen doktrinası"nı elan etdi. Doktrinada "bütövlükdə dünya Amerika sistemini qəbul etməlidir və ABŞ Sovet İttifaqının hər hansı iddialarına yönələn istənilən inqilabi hərəkata qarşı mübarizə aparmalıdır" fikirləri qeyd olunurdu. Onun həlledici amili iki həyat tərzi arasındakı ziddiyyət idi. Onlardan biri Trumenin fikrincə, fərdi hüquqlara, azad seçkilərə, hüquqi institutlara və təcavüzə qarşı təminatlara əsaslanırdı. Digəri isə mətbuat və media senzurasına, totalitarizm və avtoritarizmə əsaslan idarəçiliyə, terrora, zülmə əsaslanırdı. Prezident Trumen doktrinasının həyata keçirilməsi üçün konqresdən 4 milyard dollar ayrılmasını tələb etmişdi. Bu zaman Yunanıstanda vətəndaş müharibəsi gedirdi, Türkiyə də kommunist təhlükəsi ilə üz-üzə idi və Amerikanın təcili yardımı olmasa bu ölkələrdə qaçılmaz olaraq kommunist idarəçiliyin qurulacağına inanırdı. Sonda qanuna əsasən Yunanıstan və Türkiyə 400 milyon dollar məbləğində hərbi və iqtisadi yardım ayrıldı [71, 249].

ABŞ dövlət katibi C. Marşal tərəfindən 5 iyun 1947-ci ildə elan edilmiş və Avropaya təmənnasız yardım göstərilməsini elan edən Amerika iqtisadi yardım planı Soyuq müharibədə bloklararası mübarizənin şiddətlənməsində önəmli rol oynadı. Onun əsas məqsədlərindən biri Avropa dövlətlərində kommunist rejimlərinin hakimiyyətə gəlməsinin qarşısını almaqda iqtisadiyyatı sabitləşdirməkdən ibarət idi. Dörd il ərzində fəaliyyət göstərən bu proqram çərçivəsində Qərbi Avropanın 16 ölkəsinə 1947-ci ildən 1951-ci ilədək 12 milyard dollardan çox maliyyə yardım ayrıldı, Şərqi Avropa dövlətləri SSRİ-nin təzyiqi ilə bu proqramda iştirakdan imtina

etdilər, onun həyata keçirilməsi faktiki olaraq Avropada təsir dairələrinin bölünməsini başa çatdırdı, kommunistlər isə Avropada mövqelərini xeyli itirdilər [74, 58]. 1947-ci ilin sentyabrında Kommunist Bürosunun (Kommunist Partiyaların İnformasiya Bürosu) birinci iclasında A. Jdanov dünyada iki düşərgənin – dünya hökmranlığının qurulmasını və demokratiyanın məğlubiyyətini əsas məqsəd qoyan imperialist və antidemokratik kapitalist düşərgə, antiimperialist və demokratik sosialist blokun formalaşdığını bildirdi. Əsas məqsədin imperializmə son qoymaq, demokratiyanı gücləndirmək və faşizmin qalıqlarını məhv etməkdən ibarət olduğunu söylədi. Sovet İttifaqı onun müttəfiqlərinə təbliğat edirdi ki, kommunistlərin rəhbərliyi altında şəxsiyyətin hərtərəfli inkişafını təmin edən sosializmin zəhmətkeş xalqı amansız istismar edən imperializmə və kapitalizmə qarşı mübarizə aparır. Kominformbüronun yaradılması dünya kommunist hərəkatına rəhbərlik üçün vahid mərkəzin yaranması demək idi və təbliğatın genişlənməsində bilavasitə rol oynadı. Şərqi Avropada kommunistlər hakimiyyəti tamamilə öz əllərinə alır, bir çox müxalif siyasətçilər mühacirətə getməyə məcbur olurdular. Ölkələrdə sovet modeli üzrə sosial-iqtisadi transformasiyalara təkan verdi. Soyuq müharibənin dərinləşməsi mərhələsi Berlin böhranından başladı. 1947-ci ildə müttəfiqlər ABŞ, Britaniya və Fransa işğal zonalarının ərazilərində Almaniya dövləti yaratmağa başladılar. SSRİ öz növbəsində müttəfiqləri Berlindən sıxışdırıb çıxarmağa cəhd etdi. Nəticədə "Berlin böhranı" baş verdi, yəni SSRİ tərəfdən şəhərin qərb hissəsinin nəqliyyat blokadası, lakin 1949-cu ilin mayında SSRİ Qərbi Berlinə daşınma ilə bağlı məhdudiyyətləri aradan qaldırdı. Həmin ildə Almaniyanın bölünməsi baş verdi, mayda Almaniya Federativ Respublikası (AFR), oktyabrda Almaniya Demokratik Respublikası (ADR) yaradıldı. Böhranın mühüm nəticəsi ABŞ rəhbərliyi tərəfindən ən böyük hərbi-siyasi blokun yaradılması oldu. 1949-cu ilin aprelində Qərbi Avropanın 11 dövləti və ABŞ öncülüyündə Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) hərbi ittifaqı yaradıldı [56, 69].

Müqavilənin iştirakçısı olan dövlətlərdən birinə hücum onu imzalayan bütün ölkələrə qarşı təcavüz hesab edilir. Alyansa daxil olan hər hansı bir ölkəyə hücum halında dərhal digər üzvlər tərəfindən hərbi yardım edilməsi müqavilədə öz əksini

tapmışdır. ABŞ-ın öncülüyündə NATO-nun yaranmasına SSRİ-nin cavabı özünü gözlətmədi. 1955-ci il mayın 14-də SSRİ və Avropa dövlətlərinin sülh və təhlükəsizliyin təmin edilməsinə dair Varşava müşavirəsində Albaniya, Bolqarıstan, Macarıstan, Almaniya Demokratik Respublikası, Polşa, Rumıniya, SSRİ və Çexoslovakiya nümayəndələri dostluq və əməkdaşlığa dair Varşava müqaviləsi imzaladılar [38, 22-23]. Bu sənədə uyğun olaraq, Avropa sosialist dövlətlərinin hərbi ittifaqı –Varşava Müqaviləsi Təşkilatı (VMT) yaradıldı. İştirakçı dövlətlər onlardan hər hansı birinə silahlı hücum olarsa, yardım göstərməyi öhdələrinə götürdülər, həmçinin onların ərazilərində sovet ordusunun hissələrinin yerləşdirilməsi nəzərdə tutulurdu. Sovet İttifaqı 1952-ci ildə Finlandiyanı boşaltdı və 1955-ci ilə qədər bütün qoşunlarını Avstriyadan çıxardı. ABŞ və SSRİ arasında Avropanın gələcəyi və digər sahələrlə bağlı fikir ayrılıqları dərinləşməkdə idi. Sovet İttifaqı nasist Almaniyasından azad edilmiş Şərqi Avropa ölkələrində “dost hökumətlər” qurmaq istəyirdi. “Dost hökumətlər” dedikdə Sovet İttifaqı Amerika və İngiltərənin maraqlarına zidd olan kommunist hökumətləri nəzərdə tuturdu. Sovet İttifaqı da Türkiyədə öz hökmranlığını bərqərar etməyə çalışırdı və öz qoşunlarını İrandan çıxarılmasını ləngitmişdi, bu da Qərb ölkələrini hiddətləndirmişdi [11, 264].

“Soyuq müharibə” yeni supergüclər arasında “sülh zamanı silahsız müharibə” kimi təsvir edilmişdir. Bu, fövqəldövlətlər arasında silahlı münaqişə deyil, “diplomatik müharibə” idi, ideoloji nifrət, siyasi etimadsızlığa əsaslanırdı. Flemminq Soyuq müharibəni “döyüş meydanında deyil, insanların şüurunda gedən bir müharibə” olaraq təsvir etmişdir [10, 17]. Soyuq müharibə düşmənlərin yaxşı bildiyi və müharibənin açıq şəkildə aparılmasından çox fərqli idi. Soyuq müharibə illərində kiçik toqquşmalar istisna etməklə bərabər heç vaxt total müharibə elan edilməmiş və ölkələr arasında diplomatik əlaqələr saxlanılmışdır. Bəzən hərbi qarşıdurma və insan itkiləri baş verirdi, lakin bu, həm də düşmənin təsir zonasını məhdudlaşdırmağa və ittifaq qüvvələrin sayını artırmağa yönəlmiş psixoloji müharibə idi. Belə ki, Amerika Birləşmiş Ştatları ilə Sovet İttifaqı arasında iki qütblü qarşıdurma idi, lakin o, həm də iki super gücün müttəfiqlərini və ya asılı ərazilərini əhatə edirdi. Soyuq müharibə həm də iki ideologiya və iki fərqli təşkil olunmuş iqtisadiyyat və cəmiyyət sistemi –

sosializm və liberal demokratiya, sosialist idari-iqtisadiyyatı və kapitalizm arasındakı toqquşma idi. SSRİ və ABŞ-ın rəhbərlik etdiyi iki sistemin, iki blokun qlobal siyasi, hərbi və ideoloji qarşıdurmasıdır və İkinci Dünya müharibəsindən dərhal sonra başladı. Müvafiq olaraq ideologiya və konsepsiyaları ilə bipolyar dünya Qərb nöqteyi-nəzərindən azadlıq və demokratiyanın totalitar diktaturaya, eləcə də bazar iqtisadiyyatının planlı iqtisadiyyata qarşı çıxması kimi səciyyələndirilirdi [18, 1140].

XX əsrin ortalarından başlayaraq şərti olaraq Şərq və Qərb adlanan dünya qüvvələrinin iki əsas cazibə qütbü qurulmuşdur. İki ideoloji və hərbi-siyasi blok formalaşmış, qarşıdurma müharibədən sonrakı ikiqütblü dünyanın strukturunu böyük ölçüdə müəyyənləşdirmişdir. Həmin bloklar bipolyar sistemi "Soyuq müharibə" epoxasında təcəssüm edirdi.

# NƏTİCƏ

İkinci Dünya müharibəsinin nəticələri təkcə itkilər və dağıntılarla məhdudlaşmırdı. Müharibə nəticəsində dünyanın siması dəyişdi: yeni sərhədlər, yeni dövlətlər yaranmış, ictimai inkişafın yeni meylləri ortaya çıxdı, böyük ixtiralar və kəşflər edilmişdir.

İkinci Dünya müharibəsi ərəfəsində ABŞ prezidenti F. Ruzveltin "Yeni Xətt" siyasəti önəmli əhəmiyyət kəsb etmişdir. Həmin kurs vasitəsilə geosiyasi reallıqların yenidən dizayn olunmasında Birləşmiş Ştatların rolu güclənmişdir. "Böyük Depressiya"nın nəticələri, ölkənin iqtisadi-sənaye strukturunun iflası ilə baş qaldıran qeyri-stabilliyə və tənəzzülə Ruzveltin "Yeni xətt" proqramı mümkün qədər qarşısını almışdır. Maraqlıdır ki, iqtisadi böhranın təsirləri ABŞ-ın İkinci Dünya müharibəsinə qoşulması ilə tam aradan qaldırılmışdır. Nəticədə Birləşmiş Ştatların hərbi və sənaye potensialının yeni iqtisadi ukladının əsasını qoyulmuş, bu yanaşma müharibədən sonra ABŞ-ı şəksiz qlobal iqtisadi gücə çevirmişdir.

ABŞ-ın müharibəyə qoşulmasınadək siyasi elita, bürokratiya, konqres və müxtəlif ictimai-siyasi qruplar arasında differensiallaşma hökm sürürdü. Bu, iki xətt – "internasionalist" və "izolyasionist" cəbhədə birləşirdi. Demokratlar partiyasının üzvü, prezident F.Ruzvelt və onun administrasiyası "beynəlmiləlçilik" konsepsiyasını dəstəkləyir, fəal xarici siyasətin qlobal arenada ABŞ-ı hegemon aktora çevirə biləcəyinin mümkünlüyü ideyasını irəli sürürdülər. Demokrat Partiyasının əksinə olaraq, Respublikaçılar Partiyası "təcridçilik" siyasi xəttinin ABŞ suverenliyinin möhkəmlənməsində, ölkənin beynəlxalq arenada mövqeyinin sarsılmazlığının təmin etdiyini bildirirdi. Lakin 1941-ci il Pearl-Harbor hücumu "izolyasionist" cəbhənin aktivliyini sona çatdırdı.

ABŞ-ın İkinci Dünya müharibəsinə qoşulmasına səbəb olan Pearl-Harbor döyüşü Amerikanın xarici siyasətində dönüş nöqtəsi oldu. Pearl-Harbordan sonra nasist Almaniyasının ABŞ-a müharibə elan etməsi Vaşinqtonunu xarici siyasətində yeni dövrü başlatdı. ABŞ müharibədən həm minimum itki və dağıntılarla çıxmaq, həm də dünya siyasi səhnəsində geopolitik strateji əhəmiyyətini artıraraq qələbə

çalmağa köklənmişdi. Ona görə də “ox ölkələri” ilə hərbi-siyasi mübarizənin genişlənməsi zəminində diplomatik danışıqlar sürətlənmiş, müttəfiq dövlərlər aralarındakı siyasi uyuşmazlıq və rəqabətə baxmayaraq düşmənə qarşı vahid mübarizə halqasında çıxış etmişlər. Xüsusi ilə ABŞ və Böyük Britaniya arasında diplomatik danışıqları ittifaqın formalaşmasında unikal rol oynamışdır.

Nəticədə anti-hitler koalisiyası formalaşmış, “ikinci cəbhə” açılmış, “Lend-liz” proqramı Britaniya ilə yanaşı SSRİ-yə də şamil olunmuşdur. “Böyük Üçlük” və antifaşist bloku “ox ölkələri”nə qarşı mübarizədə qalib gəlməyə başlamışdır. “Məşəl”, “Overlord”, “Normandiya” və s. əməliyyatlarında “məhvər dövlətləri” məğlub olmuşdur. Tehran, Yalta (Krım), Potsdam konfranslarında əldə olunan qərarlar müharibənin “yol xəritəsini” təsdiqləmişdir. 1945-ci ildə Almaniyanın, daha sonra avqust ayında Yaponiyanın kapitulyasiyası ilə İkinci Dünya müharibəsi başa çatmışdır.

Müharibədən sonra Prezident Franklin Ruzvelt və dövlət katibi Cordell Hull yeni dünya düzəni qurmaq planını reallaşdırmağa başladılar. Birləşmiş Millətlər Təşkilatının qərargahı kimi Nyu-Yorkun seçilməsi də bunun ən yaxşı göstəricilərindən biridir. 1940-cı illərdə də dövlət-inhisar iqtisadiyyatına keçən ABŞ və onun müttəfiqləri Asiya, Afrika və Latın Amerikasında hökmranlıqlarını qoruyub saxlamağa çalışırdılar. Birləşmiş Ştatlar SSRİ-nin Avropada da artan təsirindən çox narahat idi. 1944-cü il iyulun 1-dən 22-dək Nyu-Hempşir ştatının Bretton-Vuds şəhərində keçirilən konfransda 44 ölkə nümayəndələri müharibədən sonrakı qlobal nizamı müzakirə etmək və yeni beynəlxalq pul sistemini qurmaq üçün bir araya gəlmişlər.

Ticarət və iqtisadi əlaqələr üzərində qurulan tərəfdaşlıqların başqa bir dünya müharibəsinin başlanmasının qarşısını almağa kömək edəcəyi ideyası ABŞ-ın nəzarətində olan Beynəlxalq Valyuta Fondunun (BVF) və Dünya Bankının qurulmasına səbəb olmuşdur. Vaşinqtonda fəaliyyət göstərən BVF, Dünya Bankı dövlətlərarası maliyyə-pul tranzaksiyasını həyata keçirmək və iqtisadi sıxıntı yaşayan ölkələrə kredit vermək məqsədi daşıyır. Bretton-Vuds konfransında valyuta məzənnələri qızıl ehtiyatları ilə əlaqələndirilmiş, ABŞ-ın dünyada qızıl ehtiyatlarının

əsas hissəsinə sahib olması ilə dollar beynəlxalq ticarət üçün yeni ehtiyat valyuta kimi ortaya çıxmışdır. BVF bu yeni qlobal iqtisadi sistemin saxlanmasına nəzarət etsə də, ABŞ dolları müharibədən sonrakı dünyada iqtisadi standart müəyyyənləşdiricisi kimi möhkəmlənmişdir.

İkinci Dünya müharibəsindən sonra ABŞ və Avropa arasında qarşılıqlı siyasi, iqtisadi, hərbi asılılıq, əlaqələr genişlənmişdir. ABŞ dövlət katibi Corc Marşall 1947-ci ildə Harvard Universitetində məşhur çıxışında (Marşal Planı) vurğulamışdı ki, ABŞ-ın çiçəklənməsi Avropada artan dinamik iqtisadiyyatdan asılıdır. ABŞ İkinci Dünya müharibəsində Almaniyaya qarşı koalisiyaya rəhbərlik etməsi və onu qələbəyə çatdırması ictimai rəydə müəyyən missiya daşıdığına inamı gücləndirmişdir.

İkinci Dünya müharibəsindən sonra "köhnə qitə"də hakimiyyət boşluğunun yaranması ABŞ-ın Avropanın daxili işlərinə fəal müdaxiləsinə şərait yaratmışdır. ABŞ beynəlxalq səviyyədə müxtəlif xarici siyasət xətlərinini sintezlərini ortaya qoymuşdur. Vilson idealizminin "Soyuq müharibə" dövrünün reallıqları ilə qarşılıqlı təsiri "qlobal meliorizm" adlı xarici siyasət istiqamətini yaratmışdır. Bu sintezin formalaşmasında xarici təsirlər və təzyiqlər mühüm rol göstərmişdir.

İkinci Dünya Müharibəsinin əsas siyasi nəticəsi faşist işğalçıları üzərində qələbədir. Faşizm təhlükəsi altında olan ölkələr və xalqlar öz müstəqilliklərini və azadlıqlarını müdafiə etdilər. Faşizm, nasizm, irqçilik, müstəmləkəçilik ideologiyası özünü tamamilə nüfuzdan saldı, əksinə, antifaşizm, anti-müstəmləkəçilik, demokratiya, sosializm ideyaları geniş populyarlıq qazandı. BMT Nizamnaməsində təsbit olunmuş insan və vətəndaş hüquqları beynəlxalq səviyyədə tanındı.

İkinci Dünya müharibəsinin çox mühüm nəticəsi müstəmləkə sisteminin süqutu olmuşdur. İkinci Dünya müharibəsi zamanı və xüsusən də onun başa çatmasından sonra müstəmləkə ölkələrin bir hissəsi müstəqilliklərini elan etdilər. Müstəmləkə sistemi çöksə də həmin ərazilərin əksəriyyəti ABŞ-ın təsir zonasına düşdü, xüsusilə "yeni qitə"də nüfuzu gücləndi. Səbəbi isə müharibə ərzində böyük dövlətlərin zəifləyərək metropoliyaları nəzarətdə saxlamaq imkanın olmaması, beynəlxalq nizamın transformasiyası, habelə ABŞ-ın "supergüc" olaraq ortaya çıxmasıdır.

Müharibə nəticəsində dünyada qüvvələr nisbəti kəskin şəkildə dəyişmişdir. Müharibədən əvvəl böyük dövlətlər olan Almaniya, İtaliya, Yaponiya məğlub olaraq bir müddət xarici qoşunların işğalı altında olan asılı ölkələrə çevrildi. Müharibədən əvvəlki dövrlərlə müqayisədə Fransanın və hətta Böyük Britaniyanın mövqeləri xeyli zəifləmişdir.

Amerika Birləşmiş Ştatları xeyli güclənərək müharibədən çıxmış, iqtisadi və hərbi baxımdan bütün digər ölkələri xeyli qabaqlayaraq kapitalist dünyasının yeganə lideri, dünya liderliyinə iddialı nəhəng "fövqəlgüc" olmuşdur. İkinci "fövqəldövlət" Sovet İttifaqı idi. Böyük itki və dağıntılara baxmayaraq, qələbə qazanan, faşist Almaniyasının məğlubiyyətində həlledici rol oynayan Sovet İttifaqı öz gücünü və beynəlxalq nüfuzunu görünməmiş dərəcədə artırmışdır.

XX əsrin 90-cı illərində, eləcə də XXI əsrin ilk 20 illiyindəki hadisələri müəyyən mənada İkinci Dünya müharibəsi ərəfəsi ilə müqayisə etmək mümkündür. Müasir dövrün geosiyasi prosesləri "Soyuq müharibə" dövrünün başa çatması ilə əlaqədardır, dünya yenidən nüfuz dairələrinə bölünməsi ilə üz-üzədir, gündən-günə gərginləşməkdə olan beynəlxalq münasibətlər, regional müharibələrin coğrafiyasının genişlənməsi dünya müharibəsinin törənməsi ehtimalını artırır, "xaos içində düzən" reallığı formalaşır. Hətta XX əsrin 90-cı illərində ortaya çıxmış "Yeni dünya düzəni", qloballaşma anlayışlarının özü də sürətlə dəyişikliyə uğramaqdadır. İkinci Dünya müharibəsindən sonra olduğu kimi, Birləşmiş Ştatlar XXI əsrin ilk qərinəsində də siyasi, iqtisadi, hərbi üstünlüklərini daha da möhkəmləndirmək, genişləndirmək istiqamətində hibrid şəkilli aktiv beynəlxalq fəaliyyət göstərməkdədir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


**Azərbaycan dilində:**

1. Abdullayev M. Beynəlxalq Münasibətlər Tarixi (XX əsr). Bakı: ABU nəşriyyat, 2006, 464 s.
2. Baxışov M. Ə. ABŞ-ın yeni və müasir tarixi. Dərs vəsaiti. Bakı: AZTU, 2012, 178 s.
3. Bayramzadə E. Amerika prezidentləri. Bakı: "Kitabklubu" nəşriyyatı, 2012, 248 s.
4. Babaoğlu H. Dünya siyasəti və Beynəlxalq münasibətlər (Dərslik). Bakı: "ÇINAR-ÇAP", 2010, 568 s.
5. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Dərslik. Bakı: "Azərbaycan" nəşriyyatı, 2005, 631 s.
6. Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. I hissə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2003, 370 s.
7. Mustafayeva S. ABŞ və Böyük Britaniyanın ən yeni tarixi (1918-2007). Bakı: ADPU, 2009, 350 s.
8. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi I hissə. Bakı: ADPU, 2010, 388 s.
9. Nağiyeva Ş., Həsənov M. Adi və qeyri-adi Amerika. Bakı: "ÇİNAR-ÇAP", 2006, 172 s.

**Türk dilində:**

10. Ataç Kaan Kutlu. "Soğuk Savaş". Güvenlik Yazıları Serisi, No.35, Kasım 2019. https://trguvenlikportali.com/wpcontent/uploads/2019/11/SogukSavas_KKAtac_v.1.pdf
11. Çağrı E. "Avrupanın intiharı" ve İkinci Dünya Savaşı Sonrasında Temel Sorunlar. Ankara Üniversitesi SBF Dergisi, Cilt 51, Sayı 1, 1996, 259-273 s.

12.Çınar B. İkinci Dünya Savaşında Almanyanın İki Cepheli Savaş Sorunu. Güvenlik Stratejileri Dergisi, 2014, Cilt 10, Sayı 20,149-197 s.
13.Çimen A, Göğebakan G. Tarihi Değiştiren Savaşlar. Timaş Yayınevi, 2016, 432 s.
14.Emeklier Bilgehan. "Soğuk Savaş Sonrası Uluslararası Sistemin Analizi". http://www.bilgesam.org/tr/index.php?option=com_content&view=article&id=698:souk-sava-sonras-uluslararas-sisteminanalizi&catid=113:analizler-sosyo-kultur&Itemid=151.
15.Gönlübol Mehmet. Uluslararası Politika. Siyasal Kitapevi, 2000, 564 s.
16.Sander O. Siyasi Tarih 1918-1994. İmge Yayın Evi, 2020, 671 s.
17.Sertel S. II Dünya Savaşı Tarihi. Cumhuriyet Yayınları, 2009, 296 s.
18.Uçarol Rıfat. Siyasi Tarih (1789-2014). Der Yayınları, 2013, 1560 s.
19.Ulus İ. 1939-1945 Kronoloji ve Belgelerle İkinci Dünya Savaşı. Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Yayınları, 1989, 951 s.
20.Yazıcı F. Tahran, Yalta ve Potsdam Konferansları: Gizli Belgeler. Sinan Yayınları, 1972, 287 s.

**Rus dilində:**

21.А.М. Родригеса и М.В. Пономарева. Новейшая история стран Европы и Америки: XX век. Ч. 2 / Под ред. Владос, 2001, 463 с.
22.Берлинская (Потсдамская) конференция руководителей трёх союзных держав — СССР, США и Великобритании. Сборник документов. М., 1984. С. 37.
23.Киппот Сейдж. США – Полная история страны. АСТ, 2021, 352 с.
24.Кеннан Дж. Дипломатия Второй мировой войны глазами американского посла в СССР. Центрополиграф, 2002, 480 с.
25.Крымская конференция руководителей трёх союзных держав — СССР, США и Великобритании (4–11 февраля 1945 г.). Сборник документов. М., 1984. С. 32.

26.Мальков В.Л. Путь к имперству: Америка в первой половине XX века. Наука, 2004, 608 с.
27.Мировые войны XX века. В 4-х кн. Кн. 4. Вторая мировая война. Документы и материалы / Рук. проекта О.А. Ржешевский. М.: Наука, 2002, 677 с.
28.Палин В. Второй фронт. Антигитлеровская коалиция: конфликт интересов. Центрполиграф, 2000, 572 с.
29.Печатнов В.О. Сталин, Рузвельт, Трумэн: СССР и США в 1940-х гг. ТЕРРА, 2006, 752 с.
30.Политика США в меняющемся мире / Отв. ред. П.Т. Подлесный. М., 2004, 333 с.
31.Ревякин А.Я. История международных отношений в новое время. Московский государственный институт международных отношений, 2004, 263 с.
32.Сенявская Е. С., Литвиненко В. А. Роль ленд-лиза и второго фронта во Второй мировой войне: мифы и реальность в историографии и политическом дискурсе // Былые годы. 2010. № 2. С. 51–52.
33.Советско-американские отношения в период Великой Отечественной войны. Документы и материалы в двух томах. Т. 2. М. 1984. С. 365.
34.Советско-американские отношения. 1934-1939 / Науч. ред.: Г.Н. Севостьянов. М.: Междунар. фонд "Демократия", 2002, 629 с.
35.Советско-английские отношения во время Великой Отечественной войны. Документы и материалы. Т. 2. М., 1983, С. 386
36.Строганов А. И. Латинская Америка в XX веке. Дрофа, 2008, 432 с.
37.Супрун М. Н. Ленд-лиз и северные конвои 1941–1945. Андреевский флаг, 1997, 364 с.
38.Урнов А.Ю. Внешняя политика СССР в годы “холодной войны” и “нового мышления”. Москва: РФК-Имидж Лаб, 2014, 36 с.
39.Уткин А.И. Мировая холодная война. Алгоритм, 2005, 712 с.
40.Хрестоматия по новейшей истории стран Европы и Америки (1918-2006 гг.) / Сост. Ю.М. Кузьмин. Киров: Изд-во Вятггу, 2007, 546 с.

41. Ширяев Б.А. Внешняя политика США: принципы, механизмы, методы. Издательство Санкт-Петербургского университета, 2007, 442 с.

**İngilis dilində:**

42. “The United States: from Ploughshares to Swords.” Chapter 3 in The Economics of World War II: Six Great Powers in International Comparison, edited by Mark Harrison. Cambridge University Press, 1998, 81-121 p.
43. Bemis S.F. Diplomatic History of the United States. N.Y., Holt, Rinehart and Winston,1965, 1062 p.
44. Bennett Gillian. The End of the War in Europe. HMSO, 1996, 249 p.
45. Board of Governors of the Federal Reserve System. Banking and Monetary Statistics, 1941 to 1970. Washington, DC: Board of Governors of the Federal Reserve System, 1976, 1168 p.
46. Brandes D. Stuart. Warhogs: A History of War Profits in America. The University Press of Kentucky, 1997, 393 p.
47. Bruce Cameron Reed. Atomic Bomb: The Story of the Manhattan Project. Morgan & Claypool, 2015, 142 p.
48. Burns R. Guide to American Foreign Relations since 1700. N.Y. Palgrave Macmillan, 2002, 240 p.
49. Churchill Winston. “The Sinews Of Peace (‘Iron Curtin Speech’). 1946, https://winstonchurchill.org/resources/speeches/1946-1963-elderstatesman/the-sinews-of-peace/
50. Corrigan G. The Second World War: A Military History. Atlantic Books, 2012, 672 p.
51. Daggett S. Congressional Research Service: Costs of Major U.S. Wars, Federation of American Scientists, viewed 1 October 2011, http://www.fas.org/sgp/crs/natsec/RS2292 pdf.
52. David M. Kennedy. Freedom from Fear: The American People in Depression and War, 1929-1945. New York: Oxford University Press, 1999, 936 p.

53. David W. Hogan. U.S Army Special Operations In World War II. University Press of the Pacific, 2004, 172 p.
54. Davies Norman. Europe at War: 1939-1945. London: Macmillan, 2006, 544 p.
55. Field Alexander J. “The Impact of the Second World War on US Productivity Growth”. The Economic History Review 61 (3). [Economic History Society, Wiley]: 2008, 672-694 p.
56. For a recent general history of the Cold War: John L. Harper, The Cold War. 2011; cf. Melvyn Leffler and Odd Arne Westad. The Cambridge History of the Cold War, Vol. 1. 2010, which gives no attention to the economic dimensions of Roosevelt’s strategy for the post-war world. One volume which does so is David Ekbladh, The Great American Mission. Modernization and the Creation of an American World Order. 2010, 63–76 and Chapter 2 in general
57. Gregory Hooks. Forging the Military-Industrial Complex: World War II’s Battle of the Potomac. Urbana: University of İllinois Press, 1991, 303 p.
58. Hastings Max. Nemesis: The Battle for Japan 1944-1945. Harper Collins, 2007, 704 p.
59. Higgs R. Depression, War, and Cold War: Studies in Political Economy. Oxford University Press. New York, 2006, 240 p.
60. Jesus A. Villamor. They Never Surrendered: A True Story of Resist ance in World War II. Quezon City, Philippines: Vera-Reyes. Publish, 1982, 420 p.
61. Johnston, Louis and Samuel H. Williamson, "The Annual Real and Nominal GDP for the United States, 1789 - Present." Economic History Services, March 2004, URL: http://www.eh.net/hmit/gdp/, accessed April 10, 2005.
62. Kagan R. Dangerous Nation. N.Y., Vintage: Reprint edition, 2008, 544 p.
63. Kershaw Lan. The End: Hitler’s Germany 1944-1945. Allen Lane, 2011, 564 p.
64. Klein Maury. A Call to Arms: Mobilizing America For World War II. New York: Bloomsbury Press, 2013, 912 p.
65. Koistinen Paul A.C. Arsenal of World War II: The Political Economy of American Warfare, 1940-1945. University of Kansas Press, 2004, 672 p.

66. Labonte M. CRS Report for Congress: Financing Issues and Economic Effects of American Wars, updated April 27 2004, National Defense University Library, viewed1 October 2011, http://www.ndu.edu/library/ docs/crs/crs_ rl31176_27apr04.pdf.
67. Lafeber W. America, Russia and the Cold War 1945-2006 10th Edition. McGraw-Hill, 2006, 496 p.
68. Hogan M, Patterson T. Explaining the History of American Foreign Policy. Cambridge University Press 2nd edition, 2004, 384 p.
69. Mawdsley E. World War II: A New History. Cambridge University Press, 2009, 498 p.
70. Michael C.C. Adams. The Best War Ever: America and World War II. Baltimore: Johns Hopkins University Press, 1994, 208 p.
71. Miscamble D. Wilson. From Roosevelt to Truman : Potsdam, Hiroshima, and the Cold War. New York: Cambridge University Press, 2007, 393 p.
72. Overy Richard. Why the Allies Won. W. W. Norton & Company, 1995, 416 p.
73. Priscilla Roberts. World War II: The Essential Reference Guide. ABC-CLIO, 2012, 411 p.
74. Quoted in Constantine C. Menges. The Marshall Plan From Those Who Made it Succeed. University Press of America, 1999, 68 p.
75. Richard D. Adamczyk, Morris J. MacGregor. United States Army in World War II: Reader's Guide. CreateSpace Independent Publishing Platform, 2015, 184 p.
76. Richard Haas. A World in Disarray: American Foreign Policy and the Crisis of the Old Order. Penguin Press, 2017, 352 p.
77. Robert S. “Great Depression”. The Concise Encyclopedia of Economics. Indianapolis: Liberty Fund, Inc., ed. David R. Henderson, 2002. Available at http://www.econlib.org/library/Enc/GreatDepression.html
78. Smyser W.R. From Yalta to Berlin; the Cold War struggle over Germany. Martins Press, 1999, 465 p.
79. Spanier John, Steven W. Hook. American Foreign Policy since World War II. CQ Press, 2018, 486 p.

80. Stanley L. Engerman and Robert E. Gallman. "War and the American economy in the 20th Century." Chapter 6 in The Cambridge Economic History of the United States. Vol. III. The Twentieth Century, Cambridge University Press, 2000, 800-830 p.
81. Wilson Center. Cold War International History Project. https://www.wilsoncenter.org/program/cold-war-international-historyproject?fuseaction=topics.home&topic_id=1409